

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 71 (7326) / Şənbə, 20 aprel 2019-cu il


## PREZİDENT İLHAM ƏLİYEV:

# Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir



...Keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək.



Mariana Vasileva: **Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi olmadan ölkənin gimnastikada əldə etdiyi uğurlar mümkün olmazdı**

⇨ Baxı: səh. 3

### 6 milyard dollarlıq "Azəri Mərkəzi-Şərqi" layihəsi təsdiq edildi



⇨ Baxı: səh. 4



### Sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin sərgisi təşkil olunub

⇨ Baxı: səh. 3

### Bir partiya sədrinin rayonlarımızın işğal tarixini bilməməsi biabırçılıqdır



⇨ Baxı: səh. 10



### Bakı Ali Neft Məktəbində tələbələrin I Respublika elmi konfransları başa çatıb

⇨ Baxı: səh. 10

### Fuad Qəhrəmanlının qızına hücum edən şəxs müxalifətçi imiş



⇨ Baxı: səh. 12


9 Beynəlxalq konfransın əsərləri "Clarivate Analytics"də yerləşdirilib

9 Hanoyda AZƏRTAC-ın sədrliyi ilə OANA İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb

16 Mobil telefonlarımızı qeydiyyata saldırmasaq...

## PİRALLAHIDA AVTOMOBİL YOLLARININ YENİDƏN QURULMASINA 1,9 MİLYON MANAT AYRILIB

Prezident İlham Əliyev Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə tapşırılır ki, sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## QAZ VƏ İŞIQ PROBLEMLƏRİNİN HƏLLİ ÜÇÜN İŞÇİ QRUPU YARADILIB

Vətəndaşların qaz və elektrik enerjisi təchizatı üzrə şikayətlərinin araşdırılması və problemlərin operativ həlli ilə bağlı Energetika Nazirliyində "Azəriqaz" İB, "Azərişıq" ASC, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, energetika naziri Pərviz Şahbazov əhalidən daxil olan müraciətlərin və qaldırılan məsələlərin həllinin nazirliyin nəzarətində olduğunu, bu istiqamətdə ümumi fəaliyyətin gücləndirilməsinin zəruriliyini qeyd edib. Nazirin müvafiq əmri ilə təxirəsalınmaz tədbirlərin görülməsi məqsədilə energetika nazirinin müavini Elnur Soltanovun rəhbərliyi ilə "Azəriqaz" İB, "Azərişıq" ASC, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin və nazirliyin struktur bölmələrinin nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb. Həmçinin vətəndaş şikayətlərinin təmin edilməsi ilə yanaşı, müvafiq müraciətlər üzrə təhlillərin və yerlərdə araşdırmaların aparılması, kompleks yanaşma əsasında problemi şərtləndirən amillərin aşkarlanması və tədbir görülməsi ilə bağlı tapşırıqlar verilib.

## MÜBARİZ QURBANLI AĞCABƏDİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 24-də Ağcabədi, Tərtər, Ağdam və Laçın rayonlarının sakinlərini qəbul edəcək.

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbul Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının inzibati binasında (Ağcabədi şəhəri, H.Əliyev prospekti, 213A) saat 11:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

DQİDK-nın bölgə şöbə müdiri: Əlizadə Nəcəfov. Əlaqə vasitələri: mob: (050) 315-53-52, telefon: 021 275-52-00. Elektron poçt ünvanları: chairman@scwra.gov.az, info@scwra.gov.az, dk-agcabedi@scwra.gov.az.

## ERMƏNİSTAN ORDUSU ATƏŞKƏSİ POZMAQDA DAVAM EDİR

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Acarlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## BAKI-TBİLİSİ-QARS:

# Beynəlxalq yükdaşıma zəncirinin mühüm həlqəsi



**Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirən Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildikdən sonra ölkəmizə maraq daha da artıb. Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilən, sabitliyə və təhlükəsizliyə xidmət edən Bakı-Tbilisi-Qarsın istismarı nəticəsində xəttin keçdiyi ərazilərdə yerləşən ölkələr arasında iqtisadi əlaqələr genişlənmiş, ticarət dövriyyəsinə qarşılıqlı sərmayə qoyuluşu artmışdır.**

Bu yolun uğurlu fəaliyyəti Azərbaycanın geosiyasi əhəmiyyətini artırmaqla ölkələrarası əməkdaşlığı möhkəmləndirir. Biznesin inkişafı, faydalı əməkdaşlıq üçün Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini etiraf edən dövlətlər qlobal layihələrin həllində təşəbbüskarlığı ilə fərqlənən Azərbaycanla münasibətlərin möhkəmlənməsində maraqlıdırlar. Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpası olduğu üçün Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri bu xətdən istifadə edəcəklər. Şimal-Cənub nəqliyyat dəhlizi isə Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcək. Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu istismara verildikdən sonra Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün də əsas tərəfdir. BTQ kimi önəmli layihə olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi Azərbaycanın tranzit ölkə kimi mövqeyini daha da möhkəmləndirdi.

"Biz neftdən, qazdan əldə edilmiş gəlirləri nəqliyyat sektoruna yönəltdik ki, Azərbaycan nəinki bu bölgədə, Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilsin" söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi tarixi hadisə olan bu yolun işə düşməsi ilə Azərbaycan ərazisindən böyük həcmdə yüklərin Şərqdən-Qərbə, Qərbdən-Şərqə daşınması daha əlverişli şərtlərlə başa gəlir. Bu gün Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı 10-dan artıq olsa da, maraqlı ölkələrin sayı bununla məhdudlaşmır. Əsas diqqət çəkən məsələ odur ki, hər iki layihədə iştirak edən yeganə ölkə, iqtisadi qüdrəti artan Azərbaycandır. Bu şans ölkəmizin Avrasiyada çox strateji nəqliyyat mərkəzinə çevrilməsi imkanlarını artırır.

BTQ ilə yüklərin daşınması bütün parametrlərə görə yük göndərən və yük qəbul edən tərəflər üçün daha sərfəlidir. Texniki imkanları baxımından da geniş imkanlara malik BTQ səmərəsinə görə fərqlənir. Başqa marşrutlarla Çindən İngiltərə, Fransa-Almaniya kimi ölkələrə yükdaşıma müddəti təxminən 42-62 gündür. BTQ vasitəsi ilə həmin yükləri ünvanlarına 12-15 günə çatdırmaq təbii ki, hər iki tərəf üçün iqtisadi və maliyyə, strateji baxımdan daha sərfəlidir. Bu kimi amillər isə BTQ-yə marağı daha da artırır. Buna görə də yaxın gələcəkdə bu xətlə yükdaşımaların sürətlə artması müşahidə ediləcək.

Bu yola artan marağın ifadəsi Orta Asiya ölkələri və Əfqanıstanla əməkdaşlığın genişlənməsi, həmin ölkələrin yüklərinin Azərbaycan üzərindən Avropaya və əks istiqamətə daşınmasıdır. Türkmənistanla əldə edilmiş razılaşmaya görə digər Orta Asiya ölkələri, Əfqanıstan öz yüklərini Türkmənistandan keçməklə Azərbaycan ərazisindən Şərq-Qərb dəhlizi ilə dünya bazarlarına çıxaracaqlar. Beləliklə, Əfqanıstanın "Lapis-Lazuli" layihəsi Bakı-Tbilisi-Qars ilə birləşdirilir.

BTQ-nin Avropadan Asiyaya ən qısa dəmir yol əlaqəsini təmin etməsi böyük beynəlxalq təşkilatların da ona marağını artırıb. NATO rəsmiləri belə BTQ-nin regional və təhlükəsizlik baxımından əhəmiyyətini yüksək dəyərləndirirlər. NATO-nun rəhbərliyi altında Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasına BTQ-nin əhəmiyyətli dəstəyi, hərbi qüvvə və multimodal tranzitə töhfə verdiyi rəsmi olaraq bildirilir.

Əvvəllər NATO-nun yükləri Əfqanıstana Pakistan üzərindən çatdırılırdısa, hazırda Şimal Alyansının yükləri Azərbaycan üzərindən, Qazaxıstanın Aktau və Kurık limanları vasitəsilə daşınır.

Qeyd edək ki, bu il aprelin əvvəlində ilk dəfə olaraq İstanbuldan yola düşən beynəlxalq yük qatarı Bakıya çatıb. Təyinat nöqtəsi Abşeron Logistika Mərkəzi olan yükün daşınması Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə həyata keçirilib.

Təməli qoyulduğu ilk gündən deyildiyi kimi Bakı-Tbilisi-Qars dəmir yolu dəhlizinin yaradılmasında məqsəd təkcə yükdaşımalar deyil, Asiyadan Avropaya və əks istiqamətdə hərəkət edəcək marşrutlarla sərnişin daşımasını da təmin etməkdir. BTQ ilə sərnişin daşımalarının da 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur ki, bununla da dəmir yolu rentabelli marşruta çevriləcək".

Bakıda sərnişinlərin daşınmasını təmin edəcək vaqonlarla tanış olan Prezident İlham Əliyevə bildirildi ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən istehsal olunan 10 vaqondan ibarət sərnişin qatarı ən müasir səviyyədədir. Sərnişinlərin rahatlığı üçün lazımi şəraitin yaradıldığı, saatda 160 kilometr sürətlə hərəkət edəcək, 246 yerlik vaqonlar "standart", "komfort", "biznes", "restoran" olmaqla dörd kateqoriyada istehsal edilib. Vaqonlar dizel generator avadanlığı ilə təmin olunduğundan lokomotivdə cərəyan olmadıqda belə 24 saat elektrik enerjisi ilə təminat mümkün olacaq. Çinin Sinxua agentliyinə müsahibəsində genişlənən Azərbaycan-Çin münasibətlərindən bəhs edən Prezident İlham Əliyev "Bir kəmər, bir yol" layihəsini əsas prioritet kimi də dəyərləndirib: "Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var."

Vurğulanıb ki, Asiya və Avropanı birləşdirən, tarixi İpək Yolu üzərində yerləşən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya yük daşımaları üçün ən qısa nəqliyyat marşrutudur.

Pekində keçiriləcək "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumunda əlaqələrin dərinləşdirilməsi, geosiyasi vəziyyətin, sabitliyin təminatına töhfələr verəcək bu yolun səmərəsindən də bəhs olunacaq. Mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edən "Bir kəmər, bir yol" təşəbbüsü BTQ-nin geosiyasi, iqtisadi səmərəsini, coğrafi əhəmiyyətini daha da artıracaq.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# Mariana Vasileva: Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi olmadan ölkənin gimnastikada əldə etdiyi uğurlar mümkün olmazdı



Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi olmadan ölkənin gimnastikada əldə etdiyi uğurlar mümkün olmazdı.

Bunu Trend-ə bədii gimnastika üzrə Azərbaycan milli komandasının baş məşqçisi Mariana Vasileva deyib.

Baş məşqçi bildirib ki, Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra ölkədə bu idman növü fəal inkişaf etməyə başlayıb: "Təkcə Milli Gimnastika Arenası tikilməyib, eyni zamanda klublarda da məşqlər üçün şərait yaradılıb, regionlarda bədii gimnastika üzrə 17 şöbə açılıb."

M.Vasileva qeyd edib ki, Azərbaycana yarışlara gələn xarici qonaqlar hər zaman Milli Gimnastika Arenasında yaradılan şəraitdən razı qalır:

"Azərbaycan Gimnastika Federasiyası dünyada gimnastikanın inkişafı üçün çox işlər görür. Bu qədər yarışları keçirməyimiz təkcə Azərbaycanda deyil, dünyada da gimnastikanın inkişafına kömək edir. AGF hər zaman qonaqları yaxşı qarşılamağa çalışır, bizdə çox gözəl şərait var. Fəxrlə deyirəm ki, bizdə olan şərait dünyada ən yaxşı şəraitdir. Azərbaycanda gimnastikanın inkişafı və populyarlaşması çox ciddi şəkildə gedir və qonaqlarımız bunu görür".

Bakıda keçiriləcək bədii gimnastika üzrə 2-ci "AGF Junior Trophy" Beynəlxalq Turnirindən danışan baş məşqçi qeyd edib ki, azərbaycanlı idmançılar yarışa yaxşı hazırlaşıblar:

"Qrup hərəkətlərdə gənclər komandası beş gimnastla təmsil olunacaq - Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə, Milana Əkbərova və Fəridə Səfiyarzadə. Onlar bundan əvvəlki iki turnirdə birinci yeri tutublar. Bu turnirdə komanda ciddi rəqiblərlə qarşılaşacaq. Fikrimcə, onlar bizi sevindirəcəklər. Fərdi hesabda Nərminə Səmədova, Nərmin Bayramova və Arzu Cəlilova çıxış edir. Bu qızlar iyulda Moskvada keçiriləcək gənclər arasında dünya çempionatına hazırlaşırlar. Fikrimcə, "AGF Junior Trophy"də komandamız yaxşı çıxış edəcək, amma idman idmandır və burada nəticəni əvvəlcədən bilmək olmaz. Ümid edirəm ki, biz səhvsiz çıxış edəcəyik və finala çıxa biləcəyik, orada isə mükafatlar uğrunda mübarizə aparacağıq".

*Siyavuş Novruzov:*

## Ermənistan kimi müqavilə əsasında yaranan dövlətlər qonşu ölkələrin mədəniyyətindən, tarixindən oğurluq edirlər



Adətən müqavilə əsasında yaranan dövlətlər saxta tarix, musiqi, mədəniyyət formalaşdırmaq istəyir. Ermənistan da bu cür dövlət olduğu üçün özünə saxta tarix, mədəniyyət, musiqi yaratmaq istəyir.

Trend-in məlumatına görə, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunda keçirilən konfransda çıxışı zaman deyib.

S.Novruzov bildirib ki, müqavilə əsasında yaranan dövlətlər qonşu ölkələrin mədəniyyətinə, musiqisinə, tarixinə əl atırlar: "Ermənilərin Azərbaycanın bir çox sahələrindən, tarixindən, mədəniyyətindən, musiqisindən oğurluq etdiyini görürük. Yalan ayaq tutar, amma yeriməz. Elə ermənilərin öz mənbələri özlərini ifşa edir, bir mənbəsi digər mənbəsinin yalanını üzə çıxarır. Ermənilər nə qədər saxtakar addımlar atsa da, tarixi faktlar ortaya çıxır və onların saxtakarlığı alimlərimiz tərəfindən də ifşa olunur".

*PA rəsmisi:*

## Erməni saxtakarlığı nasizmin bir qoludur, Ermənistanda nasizm qalib gəlib



Erməni saxtakarlığı nasizmin bir qoludur, Ermənistanda nasizm qalib gəlib.

Trend-in məlumatına görə, bunu Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunda konfransda deyib.

F.Axundov bildirib ki, Adolf Hitlerin planlarını Ermənistan həyata keçirdi: "Hitler istəyirdi ki, monoetnik dövlət yaratsın, yarada bilmədi, amma ermənilər monoetnik dövlət yaratdılar. Hitler istəyirdi ki, şəhərlərin adını dəyişsin, dəyişə bilmədi, ermənilər bizim şəhərlərin adlarını dəyişdilər. Biz Almaniyada, İtaliyada nasizmə qalib gəlmişdiksə, Ermənistanda nasizm bütün bəşəriyyətə qalib gəldi. Biz bunu açıq-aydın deməliyik".

PA rəsmisi xatırladıb ki, Robert Koçaryan deyirdi ki, erməni ilə azərbaycanlı bir yerdə yaşaya bilməz: "O, prezident ola-ola bu sözü Strasburqda demişdi və iclasın aparıcısı ona irad tutmuşdu ki, "ilk dəfədir ki, belə şey eşidirik, necə ola bilər ki, prezident belə bir söz desin?" Sonra onun həyat yoldaşı qan mərkəzi yaradılan zaman deyirdi ki, elə etmək lazımdır ki, burada yalnız erməni qanı olsun. Bu sözü ölkənin birinci xanımı deyirdi.

Digər prezident Serj Sarkisyan deyirdi ki, "azərbaycanlılar elə bilirdilər ki, biz onu edə bilmərik, ancaq Xocalıda biz mülki əhalini qırdıq, bunu biz etmişik". Özləri bunu etiraf edirlər. Buradan aydın olur ki, Ermənistan nasist dövlətdir".

# Sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin sərgisi təşkil olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda yerləşən "Elektra Events Hall"da nazirliyin sosial müəssisələrinin sakinlərinin, əsasən sağlamlıq imkanları məhdud uşaq və gənclərin "Bahar sevincləri" adlı sərgisi və konsert proqramı təşkil olunub.





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev belə bir sərginin nazirlik tərəfindən son bir il ərzində artıq üçüncü dəfə keçirildiyini bildirib. O, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaq və gənclərin reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının artırılması istiqamətində tədbirlərin ildən-ilə genişləndirildiyini vurğulayıb. Nazir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu sahədə xüsusi dəstəyini qeyd edib, Fondun həssas qruplardan olan insanların qayğı ilə və reabilitasiya tədbirləri ilə əhatə olunmasında yaxından iştirak etdiyini bildirib. S.Babayev nazirliyin sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində nümunəvi yaşayış və reabilitasiya şəraitinin yaradılmasının da Heydər Əliyev Fondunun müvafiq proqramı çərçivəsində reallaşdığını diqqətə çatdırıb.

"Bahar sevincləri" şənliyində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən sosial müəssisə sakinləri, ictimai birliklər, nazirliyin himayəsində olan inklüziv teatr və yaradıcılıq birlikləri öz yaradıcılıq bacarıqlarını nümayiş etdiriblər.

Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin əl işlərindən ibarət sərgiyə baxıb. Rəssamlıq, bədii oyma, toxuculuq növləri üzrə təqdim






olunan əl işlərində müəlliflərin həyata nikbin baxışları, arzu və düşüncələri, Vətənə sevgi hissləri, Azərbaycan təbiətinin gözəllikləri, zəngin milli-mənəvi dəyərlərimiz ifadə olunub.

Qeyd edilib ki, hər bir sosial müəssisədə sakinlərin yaradıcılıq meyilləri nəzərə alınmaqla müxtəlif dərnəklər, təlim kursları təşkil olunub, onların müvafiq incəsənət sahələrində bacarıq və qabiliyyətləri inkişaf etdirilir. Həmçinin musiqi və rəqs təlimi kursları təşkil olunub, əlilliyi olan şəxslərdən ibarət musiqi və rəqs kollektivi yaradılıb, onlar üçün xüsusi rəqs və səhnə geyimləri və musiqi repertuarları hazırlanıb. Sosial müəssisələrdən və sığınacaqlardan olan uşaq və yeniyetmələr üçün mütəmadi olaraq xüsusi ekskursiyalar və təlim kursları təşkil edilir, onların düzgün tərbiyəsi, mənəvi inkişafı və cəmiyyətə inteqrasiyası üçün məqsədyönlü strategiya həyata keçirilir.

Əl işlərinin müəllifləri ilə söhbət edən Leyla Əliyeva onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Milli kulinariya guşəsində uşaqlar qutab bişirmə, yuxa yayma, düşbərə bükmə qabiliyyətlərini nümayiş etdiriblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti xalçaçılıq guşəsi ilə tanış olub, xalça toxuyan gənclərlə söhbət edib.

Sonra konsert proqramı təqdim edilib. Gözdən əlilliyi olan Gülnar Rəhimova, Seymur Əliyev və Gülnar Novruzova mahnılar ifa edib, sağlamlıq imkanları məhdud, eləcə də daun və autizm sindromlu, hemofiliyalı, danışma və eşitmə əngəlli uşaqlardan ibarət rəqs qruplarının çıxışları olub.

İdman guşəsi ilə tanış olan Leyla Əliyeva burada Boccia İdman Federasiyasının idmançıları ilə görüşüb. Azərbaycanda boccia idmanı Leyla Əliyevanın təşəbbüsü ilə yaradılaraq ildən-ilə inkişaf edib. Bu idman növü üzrə milli komandamız beynəlxalq yarışlarda artıq ilk qələbələrə imza atıb.

Əlilliyi olan şəxslər boccia, qılıncoynatma, parataekvondo, oxatma, güllə atıcılığı növlərində öz məharətlərini göstəriblər.

Leyla Əliyeva idmançılara yeni-yeni uğurlar arzulayıb.

# 6 milyard dollarlıq "Azəri Mərkəzi-Şərqi" layihəsi təsdiq edildi

**SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev bildirdi ki, yeni qurulacaq platformanın istismar dövrü ərzində 3 milyard barreldən artıq əlavə neftin hasil olunması, Hasilatın Pay Bölgüsü Sazişinin növbəti dövrü ərzində neft sənayemizə daha 40 milyard dollardan çox sərmayə yatırılması nəzərdə tutulur**









**Dünən SOCAR-ın Baş ofisində 6 milyard dollarlıq "Azəri Mərkəzi-Şərqi" layihəsinin imzalanması mərasimi keçirildi. İmzalanma mərasimi Azərbaycanı uğurlara aparan yolu özündə əks etdirən filmin nümayişi ilə başladı.**

SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev bildirdi ki, Azərbaycan bu gün iqtisadi qüdrətinə görə Cənubi Qafqaz regionunun şəriksiz lideri kimi bütün dünyada qəbul olunur, tanınır və təqdir edilir. Ölkənin sosial-iqtisadi yüksəlişi, beynəlxalq mövqeyinin güclənməsi ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin, ölkə Prezidenti İlham Əliyevin müdrik rəhbərliyinin real bəhrələridir. Dövlətimizin başçısının rəhbərliyi ilə neftçilərimiz fədakarlıqla çalışmış, böyük uğurlar qazanmışlar.

"Bu il ölkənin iqtisadi inkişafının təməlini qoymuş və ulu öndər Heydər Əliyevin şah əsərlərindən olan "Əsrin müqaviləsi"nin 25 ili tamam olur" söyləyən R.Abdullayev qeyd etdi ki, 25 il bundan əvvəl Azərbaycan xalqının böyük sərvəti olan AÇG yataqlar blokunun işlənilməsi üçün müasir texnologiyalar və böyük həcmdə sərmayə qoyuluşu tələb olunarkən Ulu Öndər beynəlxalq neft şirkətləri ilə uğurlu əməkdaşlığın təməlini qoydu: "Ötən müddətdə birlikdə həyata keçirdiyimiz layihələr bu addımın nə qədər düzgün və uzaqgörən olduğunu bütün dünyaya nümayiş etdirdi. Ölkə Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanda görülən quruculuq-abadlıq işlərinin, dayanıqlı iqtisadiyyatımızın, böyük valyuta ehtiyatlarımızın əsas mənbəyi "Əsrin müqaviləsi"dir."

SOCAR-ın prezidenti bu inamı ifadə etdi ki, AÇG nəhəng yataqdır. 25 il əvvəl bu yataqlar blokunun ehtiyatları 500 mln. ton civarında təxmin edilirdisə, bu gün həmin həcm çıxarıldıqdan sonra yataqda ən azı bir o qədər də karbohidrogen ehtiyatlarının qaldığı məlumdur: "Ötən müddətdə bu yatağın işlənməsinə 36 milyard dollardan artıq sərmayə qoyulub. Biz hamımız dünya səviyyəli bu yatağın işlənməsində iştirakımızdan məmnunuq və onun böyük gələcəyi olduğuna inanırıq. Bu inamımızı da Hasilatın Pay Bölgüsü Sazişini 2017-ci ildə yeniləşdirib 2049-cu ilin sonuna qədər uzatmaqla bir daha təsdiq etmişik. Hazırda regiondakı mövqeyimizi, iri sərmayələr qoyduğumuz dünya səviyyəli obyektləri və infrastrukturu, yaranmış münasibətləri və ələqələri nəzərə alaraq, SOCAR və BP, bütün tərəfdaşlar layihədə satışa çıxarılacaq payların alınması məqsədilə tenderdə iştirak etmək niyyətindədirlər."

Bildirildi ki, Azərbaycan da, tərəfdaşlar da indiyə qədər bu layihədən böyük dividentlər əldə ediblər: "Azərbaycan SOCAR-ın timsalında əldə etdiyi gəlirləri ölkə həyatının təleyüklü sahələrinə, o cümlədən iqtisadi imkanların genişləndirilməsinə yönəltmişdir. Mövcud sənaye kompleksləri innovativ texnologiyalar əsasında modernizasiya edilib təkmilləşdirilmiş, yeni istehsalat müəssisələri və iş yerləri açılmış, qeyri-neft sektoru gücləndirilmişdir. Biz dünya standartlarına cavab verən









güclü potensiala və infrastruktura malikik. Dərin Özüllər Zavodu, gəmi parkımız və yüksək ixtisaslı işçi qüvvəmiz bu gün start verilən yeni layihəni - "Azəri Mərkəzi-Şərqi" platformasının tikintisini və təchizatını həyata keçirməyə qadirdir. Müstəqillik illərində əldə edilmiş təcrübə və yaradılmış resurslar bu işləri görməyə imkan verir."

"AÇG-nin tammiqyaslı işlənmə layihəsinin inkişafı baxımından bugünkü qərar strateji əhəmiyyət kəsb edir" söyləyən SOCAR-ın prezidenti vurğuladı ki, yeni qurulacaq platformanın istismar dövrü ərzində 3 mlrd. barreldən artıq əlavə neftin hasil olunması, Hasilatın Pay Bölgüsü Sazişinin növbəti dövrü ərzində neft sənayemizə daha 40 milyard dollardan çox sərmayə yatırılması nəzərdə tutulur: "Layihənin mühüm sosial əhəmiyyət daşıması da qeyd olunmalıdır. Tikintinin pik dövründə inşaat-quraşdırma işlərinə 8 minə qədər yerli vətəndaş cəlb olunacaq. Platformanın bütün əsas qurğuları Azərbaycanda inşa ediləcək. Bütün bunlar işsizliyin aradan qaldırılması, qeyri-neft sektorunun genişlənməsi, gənc milli kadrların karyera yüksəlişi üçün əlavə imkanlar yaradacaq."

R.Abdullayev sonda bu inamı da ifadə etdi ki, yeni layihə Azərbaycan iqtisadiyyatının sabit və dayanıqlı inkişafına, xalqımızın maddi rifah halının daha da yaxşılaşdırılmasına, ölkəmizin regionda və beynəlxalq bazarlarda etibarlı enerji təchizatçısı kimi mövqelərinin möhkəmlənməsinə mühüm töhfə olacaq.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Cons bildirdi ki, bugünkü bəyanat Hasilatın Pay Bölgüsü Sazişini uzadarkən qarşıya qoyduğumuz uzunmüddətli hasilat planlarını dəstəkləyir. Bu qərar Azərbaycan hökuməti və SOCAR-la sıx əməkdaşlıq etmək, AÇG yatağının ehtiyatlarını daha da səmərəli və rəqabətədavamlı şəkildə reallaşdırmaq niyyətimizi nümayiş etdirir."

O da vurğulandı ki, bu layihə çərçivəsində dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Platformadan əldə olunacaq neft və qaz məhsulunun Səngəçal terminalına qoşulan mövcud AÇG-2 ixrac kəmərinə ötürülməsi məqsədilə yeni yataqdaxili sualtı boru kəmərləri də inşa ediləcək.

Tədbirdə qeyd olundu ki, gündəlik hasilat gücü 100 000 barrel olan yeni platformanın 2023-cü ildə istifadəyə verilməsi gözlənilir. Yeni layihənin başlanğıcı "Əsrin müqaviləsi"nin 25-ci ildönümünə təsadüf edir. "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin işlənməsi üzrə Rəhbər Komitənin (SOCAR, BP, "Chevron", "INPEX", "Equinor", "ExxonMobil", "TPAO", "ITOCHU" və "ONGC Videsh") təsdiqlədiyi 6 milyard dollarlıq layihəyə yeni dəniz platforması və gündəlik 100 000 barrel neft hasilatını təmin edəcək qurğular daxildir. Platformanın istismar müddəti ərzində 300 milyon barrel neftin hasil olunması proqnozlaşdırılır. İlk hasilatın başlaması 2023-cü ildə gözlənilir. Bu, 2017-ci ildə AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin 2049-cu ilə qədər uzadılmasından sonra ilk böyük investisiya qərarıdır.

AÇG layihəsində iştirak edən şirkətlərin səhm payları aşağıdakı kimidir: BP (30.37 faiz), SOCAR (25 faiz), "Chevron" (9.57 faiz), "INPEX" (9.31faiz), "Equinor" (7.27 faiz), "ExxonMobil" (6.79 faiz), "TPAO" (5.73 faiz), "ITOCHU" (3.65 faiz), "ONGC Videsh Limited" (2.31faiz).

Sonda SOCAR-ın prezidenti Rövnəq Abullayev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Cons "Azəri Mərkəzi-Şərqi" layihəsini imzaladılar.

**✍ Yeganə Əliyeva,**
**✍ Röya Rasimqızı,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

Vüqar Rəhimzadə:

# Ölkəmizin uğurlu inkişafı anti-Azərbaycan qüvvələrin və "5-ci kolon"un çirkin kampaniyasına tutarlı cavabdır

**Azərbaycanın iqtisadi möcüzələr, ən islahatçı, xoşbəxt ölkə kimi tanınması və nüfuz qazanması düşünülmüş və gələcəyə hesablanmış siyasətin nəticəsidir. Son 15 ildə təkmilləşməni, yeniləşməni dövlət siyasətinin əsas xətti kimi qəbul edib, bu istiqamətdə davamlı addımlar atan dövlətimizin başçısı İlham Əliyevin məqsədi ondan ibarətdir ki, Azərbaycanın bütün sahələrdə təcrübəsi nümunə olmalıdır.**

Son 15 ilin sosial-iqtisadi göstəricilərinə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və roluna, demokratik dəyərlərin qorunması və inkişaf edirilməsi istiqamətində atılan addımlara və uğurlu nəticələrə diqqət yetirsək, ölkəmizin bu hədəfə yüksək səviyyədə nail olduğunu görərik.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə xarici anti-Azərbaycan qüvvələrin və onlara dəstək funksiyasını yerinə yetirən daxili bədxahlarımızın - "5-ci kolon"un çirkin kampaniyasına münasibət bildirərkən söyləyib.

Vüqar Rəhimzadə qeyd edib ki, bu gün hansı sahəyə diqqət yetirsək, Azərbaycanın davamlı inkişafını görərik: "Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilməsi bir-birindən önəmli enerji layihələrinin uğurlu icrasına, yeni-yeni layihələrin gündəmə gətirilməsinə yol açıb. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, bunların davamı olaraq ötən ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas tərkib hissəsi olan TANAP-ın istifadəyə verilməsi və



s. kimi mühüm hadisələr Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında rolunu daha da artırır, ən əsası xalqları, qitələri birləşdirən ölkə imicinə yeni əlavələr gətirir. Bu gün Azərbaycan, eyni zamanda, tranzit ölkə kimi nüfuz qazanıb. Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi regionda sabitliyin, təhlükəsizliyin əsas qarantı kimi dəyərləndirilən Azərbaycan-Gürcüstan-Türkiyə birliyinin təzahürüdür".

Onun sözlərinə görə, iqtisadi müstəqilliyin siyasi müstəqilliyin əsası olduğunu nəzərə alsaq, bu gün Azərbaycanın iqtisadi imkanlarının artması fonunda beynəlxalq aləmdə yerinin və rolunun hansı səviyyədə olduğunu geniş təhlil etməyə ehtiyac yaranmaz: "Azərbaycan öz müstəqil siyasəti ilə regionun və dünyanın aparıcı qüvvəsinə, əsl söz sahibinə çevrilib. Azərbaycanla ikitərəfli əməkdaşlıqda maraqlı olan ölkələrin sayı artmaqda, bir sözlə, dövlətimiz yeni dostlar qazanmaqdadır. Bu uğurlarımızı şərtləndirən əsas amil dövlətimizin xarici siyasətinin qarşılıqlı hörmət və maraqlar prinsipinə söykənməsi, beynəlxalq hüququn norma və prinsiplərini öndə saxlamasıdır. Məhz bunun nəticəsidir ki, dünyanın yeni siyasəti məhz ölkəmizdə müzakirə olundu. Ötən ay Azərbaycanın ev sahibliyi etdiyi, 55 ölkədən 500-dən çox nümayəndənin qatıldığı VII Qlobal Bakı Forumu "Dünyanın yeni xarici siyasəti" mövzusunu müzakirə etməklə, 27 ildən artıq müstəqillik tarixinə malik Azərbaycanın bu sahədə də təcrübəsinin nümunə olduğunu göstərdi. Azərbaycanla Avropa İttifaqı, quruma üzv olan ölkələr arasında da əlaqələrin bugünkü səviyyəsi ölkəmizin artan beynəlxalq nüfuzuna işarədir. Ötən il Azərbaycanla Avropa İttifaqı arasında "Tərəfdaşlığın prioritetləri" sənədi imzalandı, yaxın günlərdə isə strateji tərəfdaşlıq sazişinin yekun mərhələsi başa çatacaq. Bu, Azərbaycanın Avropa üçün önəmini bir daha təsdiqləyir".

Baş redaktor bildirib ki, Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələri də yüksək səviyyədədir: "Bu il Azərbaycan dünyanın 120-dən artıq ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrlik edəcək. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, ölkəmiz 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu kimi mühüm hadisələr Azərbaycana inamın, ölkəmizin ədalətli mövqeyinə dəstəyin göstəricisi, diplomatiyamızın uğurudur. Bu uğurlara yol açan əsas amil isə sabitlikdir ki, onun da əsas təminatçısı xalq-iqtidar birliyidir. Həyata keçirilən siyasətə, irəli sürülən təşəbbüslərə xalqın dəstəyi sabaha olan inamı artırmaqla yanaşı, xalq-iqtidar birliyini də möhkəmləndirir, sarsılmaz edir. Ölkə əhalisi hər addımda özünə diqqətin, qayğının şahidi olur. Aparılan siyasətin təməlində vətəndaş amilinin dayanması onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlardan da aydın görünür. Təkcə cari ilin ötən aylarında imzalanan fərman və sərəncamlara diqqət yetirsək, dövlətimizin başçısının bu addımlarının dünya üçün sosial inqilab nümunəsi olduğunu böyük inam və qətiyyətlə qeyd edərik. Uğurlarımız sırasında da yer alan 10 milyonluq ölkə sevincimiz də Azərbaycanda həyata keçirilən güclü sosial-iqtisadi siyasətin göstəricisidir".

Vüqar Rəhimzadə qeyd edib ki, Fransanın "Opinion Way" şirkətinin bu yaxınlarda keçirdiyi sorğu dövlətimizin başçısı İlham Əliyevin reallaşdırdığı siyasətə, təkmil islahatlara xalqın dəstəyinin, həmçinin bu və ya digər sahələrdə uğurlarımızın təqdimatı kimi dəyərləndirilir: "Sözsüz ki, xalqın öz Prezidentinə inamının böyük olduğu ölkədə davamlı inkişaf, xoş ab-hava, ruh yüksəkliyi inkaredilməzdir. Uğurlarımıza qısa baxış daxili və xarici anti-Azərbaycan qüvvələrin çirkin kampaniyalarının nə qədər əsassız olduğunu açıqlayır. Bu, danılmaz faktdır ki, Azərbaycanın müstəqil siyasətindən, davamlı uğurlarından narahatlıq xarici anti-Azərbaycan qüvvələrin əsassız təbliğat kampaniyalarına səbəb olur. Amma hər bir cəhdləri reallıqlarımız fonunda uğursuzluğa düçar olmağa məhkumdur. Diqqət çəkən əsas məqam isə bu ünsürlərin daxili bədxahlarımızdan öz çirkin niyyətlərini həyata keçirmələrində bir vasitə kimi bəhrələnmələridir. Xarici anti-Azərbaycan qüvvələr, onlara xidmət edən "Trensparency International", "Amnisty International", OCCRP və digər bu kimi qurumlar ölkəmiz, dövlətimizin başçısı və onun ailə üzvləri haqqında yalan, böhtan, dezinformasiya xarakterli məlumatlar yayır, Azərbaycanın beynəlxalq nüfuzuna kölgə salmağa çalışırlar. Bu kimi çirkin kampaniyaların daha çox hansı vaxtlarda həyata keçirildiyi məlum olaylardandır. Nəzərə alsaq ki, yaxın günlərdə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişi ilə bağlı işlər tamamlanacaq, bu, artıq həmin qüvvələri belə ənənəvi yollarını davam etdirməyə sövq edir. Həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi də belə narahatlıqların artmasında rol oynayır".

Baş redaktor bir daha vurğulayıb ki, ölkəmizə qarşı aparılan belə çirkin və ədalətsiz kampaniyalara tutarlı cavab reallıqlarımızdır. Ən yüksək zirvələri fəth edən, hər bir sahədə beynəlxalq səviyyəli tədbirlər üçün ideal məkan seçilən, ən əsası ədaləti əsas meyar kimi qəbul edən Azərbaycana beynəlxalq baxış artdıqca bu kimi cəhdlər də çoxalır. Lakin belə əsassız kampaniyalar heç bir təsir imkanına malik deyil, əksinə, Azərbaycan daha da qüdrətlənir, güclənir, davamlı uğurlara imza atır.

*Ekspert:*

# Bu cür çirkin siyasi oyunbazlıqlar heç vaxt həyata keçməyəcək

**Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət bilavasitə Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edir. Əldə edilən siyasi, iqtisadi nailiyyətlər ölkəmizin gücünün, qüdrətinin göstəricisidir.**

Bu fikirləri AZƏRTAC-a "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev söyləyib. O deyib ki, artıq neçə illərdir Azərbaycan dövlətinə qarşı müxtəlif şəkildə təxribatlar törətməyə cəhdlər göstərən dairələr hər dəfə uğursuzluğa düçar olduqdan sonra daha da aqressivləşirlər. Lakin bu aqressivlik onların reallıqlar qarşısındakı məğlubiyyətlərinin göstəricisidir. Son 15-16 ildə Azərbaycanın iqtisadi cəhətdən özünü təmin edən ölkə olaraq təsdiq etməsi, bir sıra mühüm strateji əhəmiyyətli layihələrin icraçısı və təşəbbüskarı olaraq dünya arenasına çıxması, həmçinin xalqın maraqlarını ən yüksək səviyyədə təmin etməsi məlum qüvvələri ciddi şəkildə narahat edir. Artıq Azərbaycan dövləti müxtəlif beynəlxalq tribunalarda söz sahibi olaraq ardıcıl siyasətini aparır. Azərbaycan bu ildən etibarən 120-dən çox ölkəni bir araya gətirən Qoşulmama Hərəkatına rəhbərlik edəcək. Bu mənada, yalnız Azərbaycan xalqı deyil, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlar da Prezident İlham Əliyevə böyük rəğbətlərini göstərirlər. Reallıq budur. Reallıq budur ki, əgər bu gün Azərbaycan dövlətinin və Prezidentinin əldə etdiyi uğurlar işğalçı Ermənistanı narahat edirsə, deməli, bu gün dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməni lobbisi hərəkətə keçir, bu uğurlara kölgə salmaq, təxribat xarakterli əməllər törətmək üçün əllərində olan bütün vasitələrdən yararlanmağa çalışırlar.

Bəhruz Quliyev bildirib ki, "5-ci kolon" kimi tanınan sapı özümüzdən olan baltalar - radikal və dağıdıcı təfəkkürə malik müxalifət və "Trensparency International", "Amnisty International", OCCRP kimi təşkilatlar erməni lobbisinin alətləri qismində ölkəmiz əleyhinə istifadə olunurlar. O cümlədən bir sıra Qərb media qurumları dezinformasiya xarakterli informasiyalarla Azərbaycan həqiqətlərini gizlədərək, böyük və ağ yalanları dünya ictimaiyyətinə sırımağa çalışırlar. Əlbəttə ki, Azərbaycanı tanıyan, bu ölkədəki demokratik, multikultural, tolerant mühiti, sabitliyi qiymətləndirən heç bir dairə belə dezinformasiyalara uymur. Ancaq bu, o demək deyil ki, dövlətimizin maraqlarına qarşı düşmənçilik, təxribatçılıq mövqeləri sərgiləyənlərə qarşı mübarizə aparmaq olmaz. Hər bir vətənsevər öz reaksiyasını göstərməli, qəti mübarizəsini aparmalıdır. Çünki bizim məqsədimiz dövlətimizin daha da güclənməsi üçün səylə çalışmaq, Prezident İlham Əliyevin uğurlu siyasətini dəstəkləməkdir. Bəlli qüvvələr anlamağa məhkumdurlar ki, heç bir təzyiq, təhdid dövlətini, Vətənini, Prezidentini sevən azərbaycanlını geri çəkə bilməyəcək, onlar layiqli cavablarını hər zaman alacaqlar.



"Son zamanlar Avropa İttifaqı ilə Azərbaycan arasında saziş layihəsi ətrafında da bənzər təxribatların baş verdiyini görürük", - deyən siyasi ekspert əlavə edib ki, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və yeni sazişlə bağlı aparılan danışıqlar da təcavüzkar Ermənistanı təlaşa salır. Sirr deyil ki, Ermənistan indi də Avropa İttifaqına üzv dövlətlər arasında olan havadarları vasitəsilə bu sazişə zərbə vurmağa cəhdlər göstərir. O cümlədən işğalçı ölkə ilə həmrəy olan məlum antimilli ünsürlər də bu sazişə qarşı çıxırlar. Bu, o deməkdir ki, özlərini "demokrat" adlandıran dağıdıcı müxalifət liderləri birbaşa ermənilərlə eyni mövqedən çıxış etdiklərini etiraf edirlər. Həmin sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması müddəası da yer alıb. Əgər təxribatçı qaragüruhçular bunu da dərk etmirlərsə, deməli, ermənilərin işğalçılıq siyasətlərini dolayısı ilə təsdiq edirlər. Məgər bundan artıq sübuta ehtiyac varmı? Ermənilərlə eyni mövqeni bölüşən radikal müxalifət Azərbaycan dövlətinə və xalqına qarşı nə qədər düşmən kəsildiyini bu addımları ilə sübuta yetirirlər.

Bəhruz Quliyev bildirib ki, bu cür çirkin siyasi oyunbazlıqlar heç vaxt həyata keçməyəcək, çünki bu oyunbazlıqlar keçmişdə də çox ciddi iflasa uğrayıb. Ona görə, Azərbaycan xalqı və dövləti haqq-ədalət yolu ilə inamla addımlamağa davam edəcək, əldə edilən siyasi, iqtisadi, sosial uğurlar istər düşmənlərimizi, istərsə də onların dəyirmanlarına su tökən təxribatçı "5-ci kolon" təmsilçilərini daha ağır məğlubiyyətlərə sürükləyəcək. Bundan əmin ola bilərlər.

## Uğurlu qazma işləri aparılıb



Birləşmiş Ştatların "Talos Energy" neft və qaz şirkəti Meksikanın ofşor hissəsində yerləşən 7 saylı blokdakı "Zama -2" quyusunda uğurlu qazma işləri apardığını elan edib. "Talos" 7 saylı blokun operatoru olmaqla yanaşı, orada 35% payın sahibidir. Birgə müəssisə şəriki "Premier Oil" blokda 25%, "Sierra Oil and Gas" isə 40% paya sahibdir.

Qeyd edək ki, "Zama" kəşfi Meksika korfezinin Suerte hövzəsindəki suyun təxminən 165 dərinliyində yerləşir. Quyunun qazıldığı yataq 2017-ci ilin iyul ayında kəşf olunub və 2019-cu ilin yanvarında tamamlanan "Zama" qiymətləndirmə proqramının bir hissəsidir.

"İki sahil" "offshore-technology.com" istinadən xəbər verir ki, quyudan gündəlik 150,000-175,000 barrel ekvivalentində neft hasil olunur.

"Talos" sözügedən ərazinin tarixində ilk dəfə belə bir nəticənin əldə olunduğunu bildirib. Şəriki "Premier Oil" şirkətinin baş icraçı direktoru Tony Durrant hasilatdan çox məmnun qaldığını, quyunun yerləşdiyi "Zama" yatağının dünya səviyyəsində yüksək keyfiyyətə malik bir yataq olduğunu bildirib. O, həmçinin "Zama- 3" quyusunun qazılacağını da proqnozlaşdırdıqlarını və "Zama-3"-ün 7 saylı blokda son qiymətləndirmə quyusu olacağını bildirib.

## "ConocoPhillips" Böyük Britaniyanı tərk edir



ABŞ-ın "ConocoPhillips" enerji şirkəti Böyük Britaniyada iki kəşfiyyat və hasilat filialını elə həmin ölkənin şirkəti olan "Chrysaor Holdings"ə 2,675 milyard dollara satıb. Xatırladaq ki, "ConocoPhillips" orada 50 ildən artıq idi ki, fəaliyyət göstərirdi.

"Chrysaor"un aldığı bu biznesdən ötən il gündəlik 72 min barrel neft ekvivalenti həcmində hasilat, ilin sonunda isə 99 milyon barrel neft ekvivalenti həcmində neft və qaz ehtiyatı əldə edilib. Ümumilikdə isə aktivlər 280 milyon barrel neft ekvivalenti həcmində təsdiq olunmuş və ehtimal olunan rezervə malikdir.

Müqavilənin cari ilin ikinci yarısında tamamlanacağı və "Chrysaor"u Şimal dənizinin Britaniyaya məxsus hissəsində ən böyük hasilatçılardan birinə çevirəcəyi gözlənilir.

"Biz Şimal dənizində mövqeyimizi gücləndirəcəyik. Bu müqavilə həm alan, həm satan tərəf üçün uğurlu olacaq. Bir gənc şirkət olaraq yeni aktivlərdə yeni strategiya tətbiq etməyi və güclü investisiya yatırmağı planlaşdırırıq",-deyə "Chrysaor"un rəhbəri Linda Z.Kuk bildirib.

Qeyd edək ki, "ConocoPhilliips" ötən ildən bəri aktivlərini tez-tez satışa çıxarır. Aktivlərin satışından şirkət 1,1 milyard dollar vəsait qazanıb.

## Ofşor lisenziyalaşdırma mərhələsi baş tutub

Argentinanın enerji naziri ölkədə son iyirmi ildə ilk dəfə keçirilən ofşor lisenziyalaşdırma mərhələsində bu sahəyə bir milyard dollara yaxın sərmayə cəlb olunduğunu açıqlayıb.

Təklif olunan 38 blokdan 18-i 13 müxtəlif neft və qaz şirkətlərinə veriləcək. Lisenziyalar ümumilikdə 200 min kvadratkilometrdən artıq tədqiq olunmamış ərazini əhatə edir.

Hərracda qalib gələn şirkətlər arasında "Qatar Petroleum", "Equinor", "ExxonMobil", "Total", "YPF", "Pluspetrol", "Tecpetrol", "Wintershall" kimi iri şirkətlər var.

"Shell" şirkətinin kəşfiyyat və hasilat üzrə direktoru Andi Braun bildirib ki, əldə olunan ərazinin potensialı bizə dərinsulu sahələrdə kəşfiyyat portfilimizi inkişaf etdirməyə imkan verəcək. "Shell" orada iki kəşfiyyat blokunda "Qatar Petroleum" ilə birgə işə başlayacaq.

ABŞ-ın "ExxonMobil" şirkətinin üç blokda lisenziya əldə etdiyi bildirilir. Şirkət Argentinada "Vaca Muerta" şist yatağında mövqeyini möhkəmləndirməklə yanaşı, 2,6 milyon ar yeni sahə əldə edib.

Norveçin "Equinor" şirkəti isə 7 lisenziya və onların beşində operatorluq hüququ əldə edib. "Bu lisenziyalar bizim kəşfiyyat strategiyamızla üst-üstə düşür və şirkətimizə yüksək potensiala malik hövzələrə çıxış imkanı verir",- deyə "Equinor"un kəşfiyyat üzrə vitse-prezidenti Tim Dodson bildirib.

Xatırladaq ki, Argentinanın enerji naziri sözügedən şirkətlərlə rəsmi müqavilələrin gələn ay imzalanacağını açıqlayıb.

# Prezident İlham Əliyevin sosial islahatlar paketi:

# əhalinin rifahı naminə yeni inqilabi addımlar

**Latın sözü "reformare"dən yaranan "islahat" termininin əsl mahiyyəti mövcud sosial quruluşu məhv etmədən, cəmiyyətin, ictimai və dövlət həyatının hər hansı bir sahəsinin məhz tərəqqi, irəliləmə istiqamətində yenidən, kökündən dəyişdirilməsini, ayrı cür, ayrı planda qurulmasını ehtiva edir. "İslahat" sözünün bəzən elə bizim dilimizdə də "reform" kimi işlənməsi məhz buradan qaynaqlanır və 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə siyasi, iqtisadi və sosial islahatlar bu qədim terminin klassik mənasına uyğun davam etdirilməkdədir.**



### Niyə məhz Heydər Əliyev siyasəti?..

Yəqin ki, diqqətli oxucularımız cənab İlham Əliyevin xalqın yekdil səsi ilə ilk dəfə Prezident seçildikdən sonra 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində bəyan etdiyi "Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əminamanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur... Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir" fikirlərini yaxşı xatırlayırlar.

### Sosial islahatlar paketi: faktlar və rəqəmlər heyrətamizdir

Heydər Əliyev siyasətinin Azərbaycana nələri qazandırdığını və hələ bundan sonra da bizi hansı uğurlara qovuşduracağını ötən ilin aprelin 11-də xalqın mütləq əksəriyyətinin səsi ilə dördüncü dəfə Prezident seçilən cənab İlham Əliyevin seçkiqabağı vədi kimi reallaşdırmağa başladığı sosial islahatlar paketinin bir ilik inqilabi nəticələrindən daha aydın görmək olar. Ona görə "inqilabi nəticələrindən" deyirik ki, dövlət başçısının son bir ildə, xüsusilə cari ilin ötən dövründə uğurla reallaşdırdığı sosial islahatlar paketinin öz miqyasına və keyfiyyət göstəricilərinə görə inqilabi xarakter daşıdığı yalnız ölkə hüdudlarında deyil, hətta beynəlxalq aləmdə də etiraf edilir. Mütəxəssislərin və ekspertlərin dövlət başçısının sosial islahatlar paketinin uğurlu nəticələri barədə səsləndirdikləri heyrətamiz faktlar və rəqəmlər bu haqlı qənaətimizi daha da gücləndirir.

Tanınmış iqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, ölkəmizdə son bir ilin yekunlarını qiymətləndirməli olsaq ardıcıl surətdə həyata keçirilən sosial islahatlar paketinin uğurlu nəticələri diqqətimizi daha çox cəlb edər: "Xüsusən 2019-cu ilin birinci rübündə həyata keçirilən sosial islahatlar vətəndaşlarımızın bu paketdən faydalanmasına gətirib çıxarıb. Nəticə etibarilə yalnız bu ilin birinci rübündə reallaşdırılan sosial islahatlardan faydalananların sayı 3 milyon nəfərə yaxındır. Eyni zamanda, bu, büdcədən əlavə olaraq 2 milyard manatın sözügedən istiqamətə yönəldilməsi deməkdir. Burada əsas diqqət çəkən məqam sosial islahatlar paketinin fərqli istiqamətləri əhatə etməsidir. Bu, həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi, bu məqsəd üçün ayrılan sosial müavinətlərin həcminin artırılması, eyni zamanda, minimum əmək haqqı və minimum pensiyanın məbləğinin əhəmiyyətli dərəcədə artırılması və bununla da nisbətən az əmək haqqı alan vətəndaşlarımızın gəlirlərinin artırılmasına nail olunması, eləcə də problemli kreditlərin həlli məsələsidir."

Hazırda 800 mindən artıq problemli kredit daşıyıcısı olan vətəndaşımızın yararlandığı bu Fərmanın icrası üçün büdcədən 700 milyon manat vəsaitin ayrılmasını Azərbaycan dövlətinin və Prezidentinin əhalinin sosial problemlərinin həllinə necə böyük həssaslıqla yanaşmalarının əyani göstəricisi kimi dəyərləndirən ekspert bu həssaslığın fövqəladə hallar zamanı özünü qabarıq büruzə verdiyini diqqətə çatdırdı: "Biz bir cəmiyyət olaraq dövlət başçısının əhalinin sosial problemlərinin həllinə həssas münasibətini, təbii fəlakətlərlə, texnogen hadisələrlə üzləşən insanlara arxa-dayaq durduğunu, onların yanında olduğunu bu ilin fevral ayında Şamaxı, Ağsu və İsmayıllıda baş vermiş zəlzələdən və mart ayında Bakının Nizami rayonundakı ticarət mərkəzində yanğından dərhal sonra əyani şəkildə gördük."

Müsahibimiz bütün bunları faktların və rəqəmlərin dili ilə şərh etməyə üstünlük verdiyini söylədi: " Mən bir mütəxəssis olaraq birbaşa insanların həyat tərzi ilə əlaqəli olan hər hansı bir məsələni şərh edərkən daha çox real faktlara və rəqəmlərə müraciət etməyi xoşlayıram. Bilirsiniz ki, cənab İlham Əliyevin 11 aprel prezident seçkilərindən dərhal sonra imzaladığı 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə 11 min manat birdəfəlik ödəmənin verilməsi ilə bağlı olması cəmiyyətimizdə həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin növbəti 7 ildə də dövlət başçısının siyasətində başlıca istiqamətlərdən biri olacağının anonsu kimi dəyərləndirildi. Prezidentin 2019-cu il 28 yanvar tarixli analoji Fərmanı isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə zəmin yaratdı. Nəticədə hər iki Fərmanın icrası məqsədilə 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün 135 milyon manat vəsait ayrıldı."

### Davamlı və dayanıqlı...

Ekspert belə hesab edir ki, son 16 ildə, xüsusilə ötən ilin prezident seçkilərindən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan iqtisadi islahatlar büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarının əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaradıb: "Dövlətimizin başçısı daim sosial problemlərin həllini diqqət mərkəzində saxladığına görə yaranmış imkanların, ilk növbədə, məhz sosial sferaya yönəldilməsini təmin edib. Məsələyə bu prizmadan yanaşsaq son aylarda minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, məcburi köçkünlərə tətbiq olunan və digər ödənişlərin məbləğinin yüksəldilməsi kimi mühüm inqilabi addımları qarşıdakı illərdə həyata keçiriləcək böyük sosial paketin yalnız bir hissəsi kimi qiymətləndirə bilərik.."

Həmsöhbətimizin qənaətinə görə, bu ilin yanvar ayından başlayaraq islahatlar paketində nəzərdə tutulan və əhalinin müxtəlif təbəqələrini əhatə edən sosial istiqamətli Prezident Fərman və sərəncamlarının imzalanması elə intensiv xarakter alıb ki, onların hər birini ayrı-ayrılıqda şərh etməyə fiziki imkan yetmir: "Fikrimcə, prosesin inqilabi mahiyyət daşımasının kökünü məhz burada axtarmaq lazımdır. Elə lap bu günlərdə, daha dəqiq desəm, aprelin 15-də cənab Prezidentin imzaladığı növbəti dövlət sənədləri-"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında", "1 dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanı məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" və "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" fərmanlar bu prosesin davamlı və dayanıqlı olacağından xəbər verir."

### ƏƏSMN ön mövqedə

Sözün əsl mənasında xalqımıza daha xoşbəxt və firavan həyat vəd edən yeni sosial islahatlar paketindən söhbət açarkən dövlət başçısının 2018-ci ilin 11 aprel prezident seçkilərindən sonra formalaşdırdığı yeni hökumətin tərkibində yer alan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) son bir ildəki fəaliyyətindən bəhs etməmək mümkün deyil. Bu müddətdə gənc nazir Sahil Babayevin rəhbərliyi ilə bu qurumun həyata keçirdiyi çevik və modern layihələrlə mübaliğəsiz demək olar ki, bütün parametrlər üzrə digər dövlət strukturlarından önə çıxması bir daha Azərbaycan Prezidentinin siyasətində vətəndaş amilinin necə böyük əhəmiyyət kəsb etdiyini tam mənası ilə ortaya qoyur.

Bu məqamda yenidən ələhəzrət faktlara müraciət etmək zərurəti yaranır. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanı ilə ƏƏSMN-nin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) və "DOST" mərkəzlərinin yaradılmasına başlanılmasını mübaliğəsiz demək olar ki, "ASAN xidmət"dən sonra ölkənin ictimai və sosial həyatında ikinci mühüm hadisə adlandırmaq olar. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan DOST layihəsi ilə əmək, məşğulluq, sosial müdafiə və təminat sahələrində xidmətlər "bir pəncərə"dən operativlik, şəffaflıq, nəzakətlilik, vətəndaş məmnunluğuna nail olunması prinsipləri əsasında təqdim ediləcək, ölkəmizin sosial xidmətlər sahəsində yeni brendi formalaşacaq.

Bundan əlavə, dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli Fərmanı ilə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqini genişləndirmək məqsədilə ƏƏSMN tərəfindən ölkəmizdə ilk sosial reyestr olan, vətəndaşların onlarla bağlı toplanmış məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və s. üzrə) və dövlət sosial xidmətlərinə real vaxt rejimində operativ çıxışına imkan verən "e-sosial" internet portalı, Məşğulluq alt sistemi və s. yaradılıb.

Son bir ildə uğurla reallaşdırılan bu kimi onlarla layihələr bir daha sübut edir ki, 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində xalqdan növbəti 7 il üçün mandat almış cənab İlham Əliyevin və onun komandasının gündəlik fəaliyyətində xalqın maddi rifah halını durmadan yaxşılaşdırmaqdan, Azərbaycanı dünyanın ən inkişaf etmiş sosial dövlətlərindən birinə çevirməkdən ümdə vəzifə yoxdur.

✍ **Əhməd Qurbanoğlu, *"İki sahil"***

*Yazı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdikləri müsabiqəyə təqdim edilir.*

# Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir

**YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyevanın www.yap.org.az saytına müsahibəsi**

***- Sədaqət xanım, bildiyiniz kimi, 11 aprel tarixində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsinin bir ili tamam oldu. Ötən bir ili necə qiymətləndirirsiniz?***

- Öncə onu qeyd edim ki, son bir ildə Prezident İlham Əliyev tərəfindən görülən işlər, ölkəmizin davamlı inkişafı, vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar göstərdi ki, ötən il aprelin 11-də keçirilən seçkilərdə Azərbaycan xalqının seçimi onun daha parlaq gələcəyini təmin edib. Ötən bir il Azərbaycan xalqının öz seçimində yanılmadığını, vətəndaşlarımızın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi. Məhz cənab İlham Əliyevin cari prezidentlik dövrünün ilk ili ərzində də Azərbaycan öz dinamik inkişafını təmin edib və xalqımız əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayıb. Lakin o da qeyd edilməlidir ki, 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,8 faizinin səsini toplayaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ötən illərdə misilsiz inkişaf yolu keçib, tarixi uğurlara imza atıb. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət xəttini şəraitin tələblərinə uyğun olaraq yeniləşdirməklə davam etdirən Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən bu dinamik inkişafa, hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə, ölkəmizin maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasətin yürüdülməsinə nail olub. Elə bu səbəbdən də xalqımız ötən müddətdə əldə olunan uğurlara 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ən yüksək qiymətini verdi.

Təsadüfi deyil ki, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son bir ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Bu müddətdə ölkəmizdə hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Dövlətimizin başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev xalq ilə daim təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir.

***- Eyni kontekstdən çıxış edərək cənab Prezident İlham Əliyevin imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara xüsusi diqqət çəkmək istərdik. Məhz sözügedən Prezident qərarlarının insanların həyatına, rifah halının yüksəldilməsinə təsirini necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Təsadüfi deyildir ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə ötən bir il ərzində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu. Dövlət başçısı son bir neçə ayda imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara aprelin 15-də daha birini də əlavə etdi. Fərmana görə, müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olundu.

***- Sirr deyil ki, cənab Prezident İlham Əliyevin problemli kreditlərlə bağlı verdiyi qərar və tapşırıqlar da insanlar üçün çox əhəmiyyətli hadisələrdən biri oldu. Necə düşünürsünüz, bu problemin həlli cəmiyyətimiz tərəfindən necə qarşılanır?***

- İstərdim ki, kiçik bir xatırlatma edim. Belə ki, problemli kreditlər məsələsi 2015-ci ildən güclənən qlobal miqyaslı maliyyə-iqtisadi böhranın nəticəsi olaraq meydana çıxmışdı. Ölkəmizdə baş vermiş iki devalvasiyanın yekunu olaraq dollar manatın məzənnəsinə nisbətdə yüksəldi və banklardan dollarla kredit götürmüş vətəndaşların ödəmə qabiliyyətinə zərbə vurdu. Amma belə bir proses təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində də müşahidə edildi.

Ötən müddət ərzində vətəndaşlarla görüşlərdə də bu problem qaldırılmışdı, insanların müraciətləri təhlil edilərək müvafiq qurumlara təkliflər göndərilmişdi, hətta Milli Məclisin plenar iclaslarında dəfələrlə səsləndirilmişdi. Yəni, gördüyünüz kimi bu problem haqqında dövlət məlumatlı olub. Deyərdim ki, hökumət bu problemin aradan qaldırılması və vətəndaşların dollar kreditləri ilə bağlı yaşadığı çətinlikləri daha tez aradan qaldırmaq niyyətində idi. Amma bilirsiniz ki, hər bir sosial qərarın arxasında ciddi maliyyə resursu dayanır.

Bu mənada, təsadüfi deyil ki, böhranın nəticələrinə baxmayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan iqtisadi islahatlar tez bir zamanda səmərəsini verdi və dövlətimizin inkişafı dinamikləşdirildi, maliyyə imkanlarımız artdı. Məhz, buna görə də 2019-cu ilin dövlət büdcəsi müzakirə edilərkən problemli kreditlər məsələsinin həlli, eləcə də cari ilə nəzərdə tutulmuş sosial proqramların maliyyələşdirilməsi haqqında ciddi müzakirələr aparıldı, təkliflər irəli sürüldü. Eyni zamanda, Prezident İlham Əliyev bu il yanvar ayının 11-də keçirilmiş Nazirlər Kabinetinin iclasında reallaşdırılacaq islahatlar, hətta perspektiv sosial tədbirlər haqqında da cəmiyyətimizi məlumatlandırmışdı.



Məhz ötən 2 ay ərzində Prezident İlham Əliyevin təqribən 3 milyon insanı əhatə edən və maliyyə tutumu təxminən 2.2 milyard manat olan sərəncamlar, fərmanlar imzalaması, qərarlar verməsi Azərbaycan xalqının yaşayışının, rifah halının daha da yüksəldilməsi məqsədinə xidmət edir.

Yəni, gördüyünüz kimi 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır və Prezident İlham Əliyevin verdiyi bu qərarlar bütün dünya üçün sosial inqilab nümunəsidir.

***- Sədaqət xanım, bu məqamda istərdik ki, Nizami rayonunda "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin atdığı addımlar, sahibkarlara göstərdiyi diqqət və qayğı barədə də danışasınız...***

- Xüsusi olaraq bildirmək istəyirəm ki, Prezident İlham Əliyev ötən 16 il ərzində atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayır. Bədbəxt hadisələr zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir.

Cənab İlham Əliyev daim vətəndaşlara ünsiyyətdədir, cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olur, insanların güzəranı ilə maraqlanır, problemlərinin həlli ilə bağlı yerində tapşırıqlar verir. Elə Lənkəranda bina çökəndə, Mərkəzi Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda, Ağsuda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış gördü.

Məhz biz eyni münasibəti Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar proseslərdə də gördük. Prezident İlham Əliyev yanğın baş verən gündən məsələni nəzarətinə götürdü, müşavirə keçirdi, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiya yaratdı. Bütün bunlar bir daha göstərdi ki, dövlət hər zaman vətəndaşın yanındadır. Azərbaycan dövləti bu dəfə də öz vətəndaşını darda qoymadı və problemlərinin ağırlıqlarını öz çiyinlərinə götürdü. Əlbəttə ki, zərər çəkmiş sahibkarlara dövlət dəstəyinin verilməsi, eyni zamanda, həyata keçirilən sosial siyasətin tərkib hissəsidir və bir daha isbatladı ki, dövlət zərərçəkmiş sahibkarlara sahib çıxdı.

Lakin bütün bu deyilənlərlə yanaşı "Diqlas"da yanğın ilə əlaqədar baş vermiş hadisələrdə Xalq-Prezident birliyi bu dəfə də Azərbaycan dövlətinin və xalqının düşmənlərinin planlarını pozdu. Zərərçəkmiş sahibkarların və onların ailələrinin, yaxınlarının düşdüyü çətin vəziyyətdən sui-istifadə edib mitinq keçirmək istəyən antimilli ünsürlər yenidən ifşa olundular, bir daha xalqdan ayrı olduqlarını, yalnız korporativ mənafeləri düşündüklərini və insanların taleyinin onları maraqlandırmağını ortaya qoydular.

***- Son olaraq istərdik növbəti ildən respublika miqyasında tətbiqinə başlanacaq icbari tibbi sığorta ilə bağlı fikirlərinizi bildirəsiniz. Tibbi sığortanın vətəndaşlarımız üçün üstünlükləri nədən ibarət olacaq?***

-Bu gün Azərbaycanda tibbi xidmət pulsuz həyata keçirilir. Dövlət xəstəxanalarında vətəndaşların qəbulu və müayinəsi tamamilə ödənişsizdir. Amma bir çox xəstəliklərdən irəli gələn əməliyyatlar və ya müalicələr var ki, onlar əsasən, özəl klinikalarda reallaşdırılır və müəyyən məbləğ tələb edir. Bu səbəbdən də, vətəndaşların tibbi sığortadan istifadəsi getdikcə günümüzün tələbinə çevrilir.

Ümumiyyətlə, tibbi sığorta insanların sağlamlığının "qızıl zəmanəti"dir. Çünki insanlar üçün hər şeydən önəmli onların səhhətidir. İnsan sağlamlığında elə problemlər yarana bilər ki, o zaman ağır əməliyyatların keçirilməsi qaçılmaz olar. Məhz, sağlamlığın qorunması və insanın daim gümrah qalması üçün tibbi müayinə vacibdir. Amma, bunun digər tərəflərini də mütləq nəzərə almaq lazımdır. Əgər vətəndaşlarımız tibbi sığortadan istifadə edərsə, o zaman onların hər hansı bir instansiyaya müraciət etmədən səhhətindəki problemləri aradan qaldırmasına imkanı olacaq. Deyə bilərəm ki, bəzi hallarda tibbi məsələlərlə bağlı müraciətlər bizə edilir. Amma bəzən də çox ağır və böyük miqdarda vəsait tələb edən əməliyyatlarla da bağlı vətəndaşların xahiş etdiklərinin şahidi oluruq. Əlbəttə ki, gücümüz çatan qədər həmin insanlara tibbi və hüquqi köməklik edirik. Lakin, böyük miqdar tələb edən əməliyyatların keçirilməsinə kömək etmək imkansız olur. Ona görə də, insanlar ya hansısa məmura, ya da xeyriyyə təşkilatlarına müraciət edirlər. Təbii ki, bu da vaxt tələb edir, bu zaman kəsiyində isə həmin xəstələrin vəziyyəti daha da pisləşir. Bu səbəbdən də insanlar sağlamlığı ilə əlaqədar heç bir problem yaşamaq istəmirsə, tibbi sığortadan istifadə etməlidir.

Qeyd edim ki, ötən il "Tibbi sığota haqqında" qanuna mühüm yeniliklər edildi və gələn ildən Azərbaycanda tam tətbiqi planlaşdırılır. Bununla da 1999-cu ildən səhiyyə gündəmini zəbt edən bir problemin həll ediləcəyi güman edilir. Bu sığorta növünün tətbiqinin yalnız səhiyyə deyil, eyni zamanda, digər sektorlara, o cümlədən əhalinin xərclərinin strukturuna da müsbət təsirləri var. İcbari sığortanın tətbiq edilməsi səhiyyənin maliyyələşdirmə bazasını dəyişməklə bu sahədəki neqativ halların azaldılmasına səbəb olacaq. Eləcə də sözü gedən islahat vətəndaşların səhiyyə xərclərinin azalması səbəbindən pullarına qənaət etməsinə, o cümlədən az təminatlı və ya işsiz statusu olan insanların səhiyyə xidmətindən yararlanmasına imkan yaradacaq. Bir sözlə, icbari tibbi sığorta bütün vətəndaşların məcburi olaraq sığorta olunması deməkdir. Vətəndaş isə səhiyyə xidmətinə ehtiyacı olan, daha aydın desək, xəstələnən zaman sığorta sənədini göstərməklə pulsuz olaraq müalicə oluna biləcək.

---

*Leyla Abdullayeva:*

## Ermənistan XİN-i "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa dəvət edirik



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan xarici işlər nazirinin erməni tərəfi və/və ya ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçiriləcək görüşlər və atılacaq addımlara dair şərhləri "3+2" formatında qəbul edilmiş birgə bəyanatlara tam uyğun olaraq edilir. Sözügedən bəyanatlar isə açıq şəkildə iki ölkə əhalisinin sülhə hazırlanması zərurətini dəstəkləyir. Ermənistan rəhbərliyi anlamalıdır ki, mövcud status-kvo qəbuledilməzdir, dayanıqlı deyildir və bu proses həmişəlik davam edə bilməz.

Bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva KİV-lərə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib: "Biz Ermənistan Xarici İşlər Nazirliyini "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa və daha praqmatik olmağa, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə etimad göstərməyə və dəstək nümayiş etdirməyə dəvət edirik.

Əgər Ermənistan tərəfi etimad quruculuğundan və danışıqlarda səmimiyyətin yaradılmasından bəhs edirsə, o zaman Azərbaycan tərəfində olduğu kimi onlar da qarşılıqlı etimadın yaradılmasına çalışmalı və buna uyğun şərhlər verməlidirlər. Eyni zamanda, onlar regionda sülh, sabitlik və rifahın yaradılması istiqamətindəki səylərə qoşulmalıdırlar".

*Hadi Rəcəbli:*

## Azərbaycanın iqtisadi uğurları nəticəsində əhalinin sosial müdafiəsi daha da gücləndirilib



"Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb. Son bir il müddətində atılan inqilabi addımlar nəticəsində bu model daha üstün formada özünü göstərməkdədir". Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib.

H.Rəcəbli bildirib ki, xüsusilə sosial sahədə həyata keçirilən islahatlar, verilən qərarlar, imzalanan sənədlər bunu deməyə əsas verir. Onun sözlərinə görə, 2018-ci ilin aprel ayında keçirilən seçkilərdən ötən bir il müddətində ölkəmiz bütün sahələrdə inkişaf edib, mühüm nailiyyətlər əldə olunub.

"Azərbaycanın iqtisadi uğurları nəticəsində əhalinin sosial müdafiəsi daha da gücləndirilib. Xüsusilə də, 2019-cu ilin ilk aylarında bu istiqamətdə atılan mühüm addımlar nəticəsində bütün vətəndaşlarımızın rifah halı yüksəlib. Ölkəmizdə elə təbəqə yoxdur ki, son 4 ayda həyata keçirilən islahatlardan faydalanmasın. 600 mindən çox vətəndaşımız minimum əmək haqlarının artırılması, bu qədər də vətəndaşımız minimum pensiyaların artırılması istiqamətində həyata keçirilən islahatlardan bəhrələnib. Bundan başqa, sosial müavinət və təqaüdlərin artırılması ilə bağlı aprelin 1-dən qüvvəyə minən sənəd əhalimizin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına istiqamətlənib. Bütövlükdə, 2019-cu ilin əvvəlindən təklif edilən sosial paket 3 milyondan çox insanı əhatə edib. Dövlətimizin büdcəsi sosial yönümlüdür. Atılan sosial addımlar Azərbaycan Prezidentinin hər bir vətəndaşın yanında olduğunu bir daha sübut etmiş oldu" - deyə, komitə sədri vurğulayıb.

*Seymur Orucov:*

## Bakı şəhərində keçirilən "Formula 1" yarışına dünyada maraq ildən-ilə artır



"Bakı şəhərində keçirilən "Formula 1" yarışına dünyada maraq ildən-ilə artır. Bu yarışı izləmək üçün ölkəmizə gələn əcnəbi qonaqların sayı da artmaqdadır. Bu fakt eyni zamanda, ölkəmizin turizm imkanlarının genişlənməsinin göstəricisidir". Bu fikirləri YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

S.Orucov bildirib ki, Bakıda keçiriləcək "Formula 1" yarışı dünyada populyar idman tədbirlərindən biridir. Onun sözlərinə görə, bu nüfuzlu beynəlxalq idman yarışına dünyada maraq ildən-ilə artır. Bakı şəhərinin bir neçə ildir ki, "Formula 1" Avropa Qran-prisinə ev sahibliyi etdiyini deyən S.Orucov deyib ki, bunun ciddi əsasları var.

"Formula 1" yarışlarının keçirilməsi üçün müəyyən şərtlər var. Azərbaycan da bu şərtlərə tam cavab verir. Bu da ondan ibarətdir ki, mötəbər idman tədbirinin keçiriləcəyi ölkədə ictimai-siyasi sabitlik olmalı, eləcə də lazımi idman standartlarına cavab verməlidir. Bilirsiniz ki, Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan sosial-iqtisadi cəhətdən dinamik inkişaf etməklə yanaşı, dünyada nüfuzlu idman ölkəsi kimi tanınır. Bu gün ölkəmizdə bütün idman strukturları mövcuddur və beynəlxlaq standartlara tam cavab verir"- deyə, YAP Gənclər Birliyinin sədri vurğulayıb.

## Ordumuzun nümayəndələri NATO-nun təlimlərində iştirak edib

Azərbaycan Ordusunun nümayəndələri NATO-nun Hərbi Tibb Mükəmməllik Mərkəzi və Rumıniya Milli Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Vigorous Warrior - 2019" çoxmillətli tibb təlimində iştirak ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Rumıniyanın Çinku təlim mərkəzində 39 ölkədən 2500 nəfərdən artıq nümayəndənin iştirakı ilə keçirilən təlimin əsas məqsədi tibbi təminat sisteminin təkmilləşdirilməsi, idarəetmənin qiymətləndirilməsi, hərbi, mülki, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əlaqənin qurulması qaydalarının məşq etdirilməsi olub.

Təlim zamanı tibbi təminat, kimyəvi, bioloji, radioloji, nüvə (KBRN) və partlayıcı qurğuların tətbiqinə qarşı hazırlıq, axtarış-xilasetmə əməliyyatlarının təkmilləşdirilməsi, müasir texnoloji dəstək vasitələrinin tətbiqi və digər məsələlər öyrənilib.

# YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı




**Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatı Gənclər Birliyinin (GB) V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin rayonda yerləşən abidəsini ziyarət edərək, abidənin önünə gül dəstələri düzüblər.**





Qaradağ rayon Heydər Əliyev Mərkəzində keçirilən konfransı giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov əvvəlcə respublikamızda həyata keçirilən gənclər siyasəti haqqında məlumat verib. O, Azərbaycanda gənclərin hərtərəfli inkişafı üçün geniş imkanların olduğunu söyləyib. Aydın Hüseynov, həmçinin ölkəmizin və regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının gənclərlə bağlı məsələlərə çox böyük əhəmiyyət verdiyini vurğulayaraq qeyd edib ki, YAP gənclərə özlərini təsdiq etmək və inkişaf etdirmək üçün münbit platforma təklif edir. YAP-ın sıralarında birləşən vətənpərvər gənclər ordusu Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edir.

Milli Məclisin deputatı A.Hüseynov daha sonra Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb. Deputatın sözlərinə görə, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir.

Daha sonra YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sədri Ramiz Yusubov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, YAP Qaradağ rayon təşkilatının 12124 nəfər üzvü var. Onlardan 4282 nəfərini gənclər, 3627 nəfərini isə qadınlar təşkil edir: "Gənc üzvlərimizin 1490 nəfəri ali, 832 nəfəri orta ixtisas, 1960 nəfəri orta təhsillidir. Gənclərin 434 nəfəri təhsil, 182 nəfəri səhiyyə, 52 nəfəri idarəetmə sahəsində, qalan üzvlər isə digər idarə və müəssisələrdə çalışır, onların 294 nəfəri isə tələbədir. 26 gəncimiz isə 23 dekabr 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində seçicilərin etimadını qazanaraq, bələdiyyə üzvü seçiliblər. Hesabat dövründə YAP Qaradağ rayon təşkilatı GB-nin sıralarına 721 nəfər qəbul olunub".






Konfransda çıxış edən gənclər - Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Seyidməmməd Məmmədzadə, Bakı Gəmiqayırma Zavodunun meneceri Namiq Vəliyev, Ərzaq Məhsullarının Tədarükü və Təchizatı İdarəsinin mütəxəssisi Zaur Baxşəliyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Rafail Quliyev, YAP Qaradağ rayon təşkilatı aparatının məsləhətçisi Könül Əhmədova, Bakı Dövlət Universitetinin tələbəsi Səbinə Hüseynli, aprel döyüşlərinin iştirakçısı Həsrət Alxasov və digərləri YAP Qaradağ rayon təşkilatının ötən dövrdəki fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurları barədə də məlumat veriblər.

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov da YAP Qaradağ rayon təşkilatının gənc üzvlərinin rayonun və bütövlükdə ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini vurğulayaraq konfransın işinə və rayon təşkilatı Gənclər Birliyinin yeni seçiləcək Şura və İdarə Heyətinin üzvlərinə uğurlar arzulayıb.

Konfransda çıxış edən YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə isə deyib ki, Azərbaycanda dövlət gənclər siyasətinin təşəkkülü və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərə həmişə böyük qayğı göstərib, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirib. V.Rəhimzadə ölkə gənclərinin YAP-ın təklif etdiyi fəaliyyət imkanlarından bəhrələnərək Azərbaycanın ictimai-siyasi həyatında, ölkəmizin inkişafında aktiv rol oynadıqlarını bildirib.

YAP Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov da Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin uğurlarından danışıb. Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür, əhəmiyyətli nəticələr əldə olunur. Sevindirici haldır ki, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən gənclər arasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri, o cümlədən YAP Qaradağ rayon təşkilatının gənc üzvləri də ilk sıralardadırlar.

Sonra səsvermə keçirilib. Seyidməmməd Məmmədzadə YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sədri, sədrin müavinləri, 57 nəfərdən ibarət Şura və 23 nəfərdən ibarət İdarə Heyətinin yeni tərkibi seçilib. Həmçinin YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr müəyyənləşib.

**Nail Rəhimzadə,**
***"İki sahil"***

# Hanoyda AZƏRTAC-ın sədrliyi ilə OANA İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb

**Aprelin 19-da AZƏRTAC-ın sədrliyi və Vyetnamın VNA xəbər agentliyinin təşkilatçılığı ilə Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclası işə başlayıb.**







AZƏRTAC xəbər verir ki, iclasda iştirak edən Vyetnamın Baş nazirinin müavini Vu Duc Dam, informasiya və kommunikasiya texnologiyaları naziri Nguyen Manh Hung və nümayəndə heyətləri OANA-nın üzv agentliklərinin təqdim etdiyi fotolardan ibarət sərgiyə baxıblar. Rəsmi qonaqlar AZƏRTAC-ın təqdim etdiyi fotolarla da maraqla tanış olublar.

İclasın açılış mərasimində Vyetnamın dövlət himni səslənib, bu ölkəyə həsr olunan videoçarx nümayiş etdirilib.

VNA agentliyinin baş direktoru Nquyen Duc Loi çıxışında OANA İcraiyyə Komitəsinin iclasının Hanoyda keçirilməsini bu təşkilatın inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib. O, iclasın təşkilinə göstərdiyi dəstəyə görə OANA-nın sədrinə - AZƏRTAC-a təşəkkür edib.

Sonra çıxış edən Vyetnamın Baş nazirinin müavini Vu Duc Dam müasir medianın informasiya texnologiyalarının inkişafı dövründə ciddi çağırışlarla üz-üzə qaldığını qeyd edib. O deyib ki, yalnız jurnalistika dəyərlərinə söykənən media bu çağırışların öhdəsindən məharətlə gələ biləcək. Bu baxımdan OANA-nın inkişafının vacibliyini vurğulayan Baş nazirin müavini təşkilatın prezidenti Aslan Aslanovun və AZƏRTAC-ın sədr kimi bu istiqamətdə səylərinin önəmli olduğunu diqqətə çatdırıb.

OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iştirakçıları salamlayaraq iclasın yüksək səviyyədə keçirilməsinə görə Vyetnam hökumətinə, Baş nazirin müavininə və VNA agentliyinə təşəkkürünü bildirib.

Müasir dövrdə media qurumları arasında əməkdaşlığın əhəmiyyətini qeyd edən OANA prezidenti deyib ki, Dünya Xəbər Agentlikləri Konqresi və OANA-nın sədri olaraq AZƏRTAC hər iki qurumun fəaliyyətinin daha da təkmilləşdirilməsinə öz töhfəsini verməyə çalışır. Bu baxımdan səmərəli əməkdaşlıq mexanizmləri, innovasiyalar və təcrübə mübadiləsi kimi üç amil daim diqqətdə saxlanılır.




“Müasir yeniliklərə adaptasiya olmaq vacib amildir. Eyni zamanda, jurnalistika ənənələrini qoruyub saxlamaq da bizim peşə borcumuzdur. Onlayn media və sosial şəbəkələrin geniş yayıldığı, feyk xəbərlər kimi təhlükəli meylin gücləndiyi bir vaxtda informasiyanın düzgünlüyünü, obyektivlik və tərəfsizliyini daim yüksək tutmaq üçün mütəmadi səylər göstərməli oluruq, bu sınaqlardan birgə keçməyə çalışırıq. Regionun əsas xəbər agentliklərini birləşdirən OANA bu çağırışlara tutarlı cavab vermək üçün güclü platformaya çevrilə bilər. Bunun üçün yenilikləri gecikmədən tətbiq etmək, təşkilatı daha da müasirləşdirmək, daha çevik informasiya mübadiləsi mexanizmləri yaratmaq lazımdır”, - deyə Aslan Aslanov vurğulayıb.

Qeyd edək ki, Hanoyda işə başlayan OANA İcraiyyə Komitəsinin 44-cü iclası aprelin 20-dək davam edəcək.

İclasda Türkiyənin Anadolu, Rusiyanın TASS, Avstraliyanın AAP, Cənubi Koreyanın Yonhap, Ərəb Əmirliklərinin WAM, Çinin Sinxua, İndoneziyanın Antara, Malayziyanın Bernama, İranın İRNA, Yaponiyanın Kyodo və digər agentliklərin rəhbərləri və nümayəndələri iştirak edirlər.

OANA-nın cari məsələlərinin, media qarşısında duran çağırışların, feyk xəbərlərlə mübarizənin, faktların yoxlanması, agentliklərin üzləşdiyi problemlərin müzakirə edildiyi iclasda təşkilatın Mükəmməllik Mükafatının qalibləri elan olunacaq.

İclas işini sessiyalarla davam etdirir.

# Beynəlxalq konfransın əsərləri “Clarivate Analytics”də yerləşdirilib




Ötən il iyulun 11-13-də Bakıda keçirilmiş VI Beynəlxalq “Sənaye Tətbiqli İdarəetmə və Optimallaşdırma” (COIA-2018) konfransının əsərləri dünyanın ən böyük elmi-analitik informasiya bazalarından olan “Clarivate Analytics”in saytında (keçmiş “Tomson Reyter” agentliyi) yerləşdirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, fəxri sədri Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə olan konfrans Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi, Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə baş tutmuşdu.

Konfransın əsərlərindən ibarət kitabdakı 220 məqalədən 73-ü Bakı Dövlət Universitetinin, o cümlədən 20-si Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun alimlərinə məxsusdur.




Əsərlərin redaktorları akademik Fikrət Əliyev və ABŞ-ın İllinois Universitetinin professoru Tamer Başardır.

Qeyd edək ki, seçilmiş genişhəcmli məqalələr Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda çap olunan Azərbaycanın yeganə İSİ İmpakt Faktorlu (2.365) “Applied and Computational Mathematics” beynəlxalq jurnalında çap olunacaq.

“İmpakt Faktor” elmi jurnallarda dərc olunan akademik məqalələrin əhəmiyyətinə və beynəlxalq elmi ictimaiyyət tərəfindən həmin nəşrə olan istinad sayına görə təqdim edilir.

Xatırladaq ki, artıq ənənə halını almış bu konfrans Bakıda dördüncü dəfə təşkil olunurdu. Beynəlxalq tədbirdə Türkiyə, Böyük Britaniya, İspaniya, Rusiya, Meksika, Ukrayna, İran, Hindistan, Şimali Kipr Türk Respublikası, Pakistan, Gürcüstan, Bolqarıstan, Küveyt və digər ölkələrdən gəlmiş 250-dək alim və tədqiqatçı iştirak edirdi.

## Gürcüstan Azərbaycandan qaz idxalını artırıb

Gürcüstan bu ilin birinci rübündə Azərbaycandan təbii qaz idxalını artırıb.



AZƏRTAC xəbər verir ki, bu barədə məlumat qonşu ölkənin Milli Statistika İdarəsinin ilkin rüblük hesabatında yer alıb. Bildirilir ki, 2019-cu ilin yanvar-mart aylarında Gürcüstan Azərbaycandan 123 403,5 min ABŞ dolları həcmində 718 min 171 kubmetr təbii qaz idxal edib.

Son bir ildə Azərbaycandan Gürcüstana ixrac olunmuş təbii qazın həcmi 78 min 414 kubmetr və ya 12,2 faiz artıb. Təbii qazın qiymətində isə 10 782,5 min dollar və yaxud da 9,5 faiz artım qeydə alınıb.

## Yekaterinburqda “Azərbaycan nemətləri” mağazalar şəbəkəsi” təqdim olunub

Ural Sənaye-Ticarət Palatası və Azərbaycanın Yekaterinburqdakı Baş konsulluğunun dəstəyi ilə Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyinin “Azərbaycan nemətləri” mağazalar şəbəkəsi” layihəsinin növbəti təqdimatı olub.



Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyindən AZƏRTAC-a bildiriblər ki, yerli sahibkarlar “Azərbaycan” Ticarət Evi” layihəsinin konsepsiyası, onun tərkib hissəsi olan “Azərbaycan nemətləri” mağazalar şəbəkəsi” ilə tanış olublar.

Konsepsiya azərbaycanlı ixracatçıların kompleks dəstəklənməsi sisteminin formalaşması və Azərbaycan mallarının Rusiya bazarına çıxarılması məqsədi daşıyır. “Azərbaycan nemətləri” mağazaları Moskvada və Rusiya Federasiyasının müxtəlif regionlarında yerli sahibkarların iştirakı ilə açılacaq və geniş məhsul çeşidləri olan iri mağazalardan tutmuş, xüsusi çay və şərab evləri də daxil olmaqla, müxtəlif formatlarda fəaliyyət göstərəcək.

“Azərbaycan” Ticarət Evi” mağazaların geniş çeşiddə Azərbaycan məhsulları ilə təmin olunmasına kömək edəcək və ölkəmizin ixrac potensialı, turizm və investisiya imkanları ilə tanış olmağa şərait yaradan və daimi fəaliyyət göstərən “vitrin” rolunu oynayacaq, həmçinin rusiyalı və azərbaycanlı sahibkarlar üçün əlaqə vasitəsinə çevriləcək.

# Bakı Ali Neft Məktəbində tələbələrin I Respublika elmi konfransları başa çatıb







Bakı Ali Neft Məktəbində (BANM) ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tələbələrin I Respublika elmi konfransları başa çatıb.

Tədbirə BANM-in rəhbərliyi və professor-müəllim heyəti, eləcə də, ali məktəbin tərəfdaşları olan SOCAR-ın Kompleks Qazma İşləri Tresti, "SOCAR Polymer", "Huawei", "Maire Tecnimont", "ABB", "Microsoft", "Emerson Process Management" və "Avandsis Group" şirkətlərinin təmsilçiləri qatılmışdılar. Eyni zamanda konfranslarda iştirak etmiş və öz maraqlı təqdimatları ilə seçilərək qalib müəyyən edilmiş tələbə və gənc alimlər də tədbirdə iştirak ediblər.

Qonaqları salamlayan BANM-in rektoru Elmar Qasımov ali məktəbdə 15 aprel tarixindən etibarən keçirilən konfransların yekunu barədə məlumatları iştirakçıların diqqətinə çatdırıb. Çoxsaylı bölmələrdən ibarət üç geniş başlıq altında - Kimya və kimya mühəndisliyində perspektivlər, Keyfiyyətli enerji, keyfiyyətli xidmət və Yüksək texnologiyalar- innovativ tətbiqlər mövzuları çərçivəsində təşkil olunmuş konfranslara ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələri və AMEA-nın institutlarını təmsil edən ümumilikdə 177 nəfər tələbə və gənc alimin müraciət etdiyini bildirən rektor hər bölmə üzrə uğurla çıxış etmiş qaliblərin bu gün BANM-in sertifikatları, eləcə də konfransa dəstək vermiş yerli və transmilli şirkətlərin qiymətli hədiyyələri ilə mükafatlandırılacaqlarını bildirib. Hər bir iştirakçıya konfransda fəal iştirak etdikləri üçün təşəkkür edən rektor onlarda elmi-tədqiqatlara marağın bundan sonra daha da artacağından əmin olduğunu vurğulayıb. Daha sonra 1-ci, 2-ci və 3-cü yerlərin qaliblərinə, həmçinin həvəsləndirici kateqoriya üzrə seçilmiş iştirakçılara sertifikat və hədiyyələr təqdim olunub.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# Bir partiya sədrinin rayonlarımızın işğal tarixini bilməməsi biabırçılıqdır



"Xocavənd, Ağdərə nə vaxt işğal olunub" sualına "kim?" deyə cavab verən bir "siyasətçi"ni, partiya rəhbərini görəsən partiyadaşları necə qiymətləndirir?

Ötən gün "TV Musavat"ın canlı yayımlanan debatında Yeni Azərbaycan Partiyasını Milli Məclisdə təmsil edən deputat, professor Elman Nəsirovla Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev iştirak ediblər.

Burada Milli Məclisin deputatı Elman Nəsirov çox doğru məqamlara toxunub. Bildirib ki, Azərbaycan uğurlu sosial dövlət modeli yaradıb. Azərbaycanın beynəlxalq mövqeyinin davamlı olaraq möhkəmlənməsi isə həyata keçirilən praqmatik və çoxvektorlu xarici siyasət kursunun qanunauyğun nəticəsidir: "Ancaq mənə bu debatda gülünc olan məqamlar olduqca çox idi. Əli Əliyev dialoqdan, müxalifətdən danışır, amma özü də yaxşı bilir ki, müxalifət o qədər dağınıqdır ki, bir yerə yığılanda da "Azərbaycan Xalq Hərəkatı"ndakı (AXH) kimi qışqır-bağır, söyüş, hətta əlbəyaxa davaya qədər gedən proseslər olur. Əli Əliyev, siz yaxşı olardı ki, təmsil olunduğunuz "Azərbaycan Xalq Hərəkatı"ndakı parçalanmanın qarşısını alın, deyərdim. Fəqət buna gücünüz yetməz, barı qarşısını alın deyirəm. Bir "hərəkat"da ortaq məxrəcə gələ bilməyən sizlər hansı siyasi iddialarınıza güvənirsiniz? Necə deyərlər, illər ötsə də, zaman dəyişilsə də, müxalifət dəyişilməyib və yerində addımlamaqda davam edir. Necə ki, bu düşərgədə fəaliyyət göstərən birliklərə qarşı alternativlik iddiasını ortaya qoyan "Azərbaycan Xalq Hərəkatı" kimi. Dövlətini satan müxalifət boşboğazlığından nə vaxt əl çəkəcək görəsən? Əli Əliyev "30 ildir siyasətdəyəm, 20 ildir debatlara çıxıram" deyir. Görəsən o hansı debatdır? Bu adam bir xanım aparıcının yanında ağzına gələni danışır, sonra da "siyasətçiyəm" deyir."

Elman müəllim Qarabağ məsələsi ilə bağlı vəziyyəti yüksək səviyyədə açıqlasa da Əli Əliyev ənənəvi müxalifətçilik mövqeyindən əl çəkməyərək qərəzli yanaşma sərgiləyirdi. Çıxışında "Lələtəpə belə gəldi, Cocuq Mərcanlı belə getdi" deyən Əli Əliyevin Lələtəpənin, Cocuq Mərcanlının işğaldan azad olunmasına sevinməməsi aydın sezilir, kinayəli "niyə sevinmirəm ki" deməsi isə onun kimi "siyasətçi" haqda izləyicilər arasında hansı fikrin formalaşmasını ortaya qoyur. Ay Əli Əliyev, bu kəndlərin, ərazilərin işğaldan azad edilməsi işğal olunmuş torpaqlarımıza qayıdışın başlanğıcıdır. Gün gələcək torpaqlarımız işğaldan azad olunacaq, bu fikirlərə görə sizlər utandığınızdan girməyə siçan deşiyi axtaracaqsınız.

Elman Nəsirovun "Xocavənd rayonu nə vaxt işğal olunub" sualına "kim?", "hansı Xocavənd?", "Ağdərə nə vaxt işğal olunub" sualına "kim?" deyə cavab verən bir "siyasətçi"ni, partiya rəhbərini görəsən partiyadaşları necə qiymətləndirir? Elman müəllimin dediyi kimi, bunun kimi bir "siyasətçi"nin işğal olunmuş rayonlarımızın işğal tarixini bilməməsi isə həqiqətən də utancvericidir. Hələ bu savadda, bu ağılda olan adam millətin vəkili də olmaq arzusu ilə yaşayırmış. Öz torpağının işğal tarixini bilməyən belə bir partiya sədri debat boyu açıqaydın bürüzə verirdi ki, onun amalı, məramı yalnız və yalnız kresloya sahiblənməkdir.

Bir faktı da E.Nəsirov yerində dedi. Debatın əvvəlində seçkilərdə saxtakarlığın olduğunu iddia edən Əli Əliyevə Elman müəllimin 2010-cu ildə parlamentdə təmsil olunmaq üçün saxta yollara əl atdığını və bu barədə faktların olduğunu deyəndə reaksiyasını bütün izləyicilər görüb, hiss etdilər. Satqınlığı ilə məşhurlaşan Əli Əliyev, hay-küy salmaq, qışqırbağır etmək sizlərin təmsil olunduğunuz AXH-də vərdiş etdiyiniz əməllərdir. Olub, olacağınız yer də elə o masa olacaq ki, bir-birinizi söyə, təhqir edə, hətta şilləyəsiniz.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Pirallahıda maarifləndirici tədbir



**Pirallahıda "Milli mənəvi, dini dəyərlərimizin qorunması və yeniyetmələrin psixoloji cəhətdən buna hazırlanması" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin əməkdaşları, dini icmanın üzvləri, ağsaqqallar, ziyalılar, müəllimlər və gənclər iştirak etdilər.**

Tədbiri giriş sözü ilə açan 186 nömrəli tam orta məktəbin direktor müavini Həcər Ramazanova gənclərin yad təsirlərdən və xüsusilə radikalizm təhlükəsindən qorunması üçün keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətindən danışaraq, gənclərin dünyagörüşünün formalaşması və sadalanan təhlükələrdən qorunmaları üçün təhsil amilinin vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən Pirallahı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Azad Namazova bildirib ki, Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəliləyir. Ölkəmizdə demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurulduğu bir vaxtda milli mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Respublikanın gələcək taleyi onun gənclərindən asılı olduğu üçün təhsildə aparılan islahatlar milli ənənələrimizə, milli dəyərlərimizə söykənərək soykökünə bağlı şəxsiyyətin formalaşmasına xidmət etməlidir. Azərbaycanlı milli düşüncəsində ailə kiçik dövlət modeli kimi qəbul edilməklə, müqəddəs və ülvi sayılır. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil etdiyi vurğulandı. İntellektli və sağlam gəncliyin formalaşması, gənclərin yad təsirlərdən uzaq qalması üçün hər kəsin, ilk növbədə müəllimlərin və valideynlərin üzərinə böyük məsuliyyət düşdüyü xüsusi vurğulanıb.

Pirallahı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Eldəniz Səfərov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox mühüm diqqət göstərməsindən danışıb.

Daha sonra tədbirdə çıxış edən 231 saylı orta məktəbin psixoloqu Kübra Əliyeva valideynlərlə, uşaqlarla maarifləndirici işin aparılmasının vacibliyi haqqında söhbət açıb.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Nüsrət Məmmədov,**
***"İki sahil"***

# YAXIN ŞƏRQDƏ İKİ TƏHLÜKƏLİ PROSES:
# dağıdıcı trendlərin güclənməsi



**Qlobal dünya siyasətində sular durulmur. Geosiyasi güc mərkəzləri arasında mübarizə yeni çalarlar alır. Meydana yeni təhlükələr və risklər çıxır. Düşündürücüdür ki, siyasi liderlər vəziyyəti gərginləşdirməyə yönəlmiş üsullara daha çox üstünlük verirlər. Yəni siyasətçilərin niyyətlərinin də sabitliyə, sülhə nail olmaqla əlaqəli olmadığı təəssüratı yaranır. Bu baxımdan son zamanlar Yaxın Şərqlə bağlı baş verən iki hadisə diqqəti çox çəkir. Onlardan biri Vaşinqtonun patronajlığı ilə "ərəb NATO-su"nun yaradılmasına başlanması, digəri isə Suriyada böyük dövlətlərin geosiyasi maraqlarının yenidən toqquşmasıdır. Hər iki hadisəni birləşdirən ümumi cəhət regionda vəziyyətin daha da gərginləşdirilməsidir. Həmin kontekstdə Yaxın Şərqdə yaranmış geosiyasi mənzərəni təhlil etməyə ehtiyac görürük.**

### Bir planın gizli tərəfləri: "ərəb NATO-su" kimlərə sərf edir?

Yaxın Şərqdə geosiyasi əhəmiyyətli proseslərin meydana çıxması gözlənilir. Bu regionda ümumi mənzərənin mürəkkəbləşməsinə aparıb çıxara biləcək hadisələrin ssenariləri hazırlanır. Ekspertlər hesab edirlər ki, bir neçə ildir ki, özünü göstərən dinamika dəyişmək üzrədir. Doğrudur, bir sıra ekspertlərə görə, məsələ "Ərəb baharı"nın yeni dalğasının yaradılması ilə bağlıdır. Nümunə kimi Sudan, Əlcəzair və Liviya göstərilir. Bu ehtimalı istisna etmək olmaz. Eyni zamanda, problem həmin prosesin arxasında dayanan qüvvələrin geosiyasi planları və mübarizələri aspektində daha aktual görünür.

Bu prizmadan ümumi mənzərə isə kifayət qədər mürəkkəbdir və risklərlə doludur. Onun fonunda iki hadisəni ayırmaq olar. Onlardan biri Ər-Riyadda "Strateji Yaxın Şərq Alyansı" (Middle East Strategic Alliance - MESA) üçün çalışmalara başlanmasıdır. Bu layihə Səudiyyə Ərəbistanının liderliyi ilə həyata keçirilməlidir. Onu obrazlı şəkildə "ərəb NATO-su" da adlandırırlar. Bu təşkilatın əsas məqsədi "regionda və dünyada sabitlik və təhlükəsizliyin gücləndirilməsi" kimi təqdim edilir. ABŞ, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Küveyt, Oman, İordaniya və Qətər bu prosesdə yaxından iştirak edirlər. Misir qəfil həmin layihədən çıxdığını açıqlayıb.

Misir prezidenti Əbdül Fəttah əs-Sisinin bu addımını ekspertlər belə izah edirlər - Qahirə İrana qarşı olan hər hansı siyasi təşkilatda iştirakçı olmaq istəmir. Misir rəhbərliyinin son dövrlərdə Rusiya və Türkiyə ilə müəyyən razılığa gəldiyi vurğulanır. Belə çıxır ki, "ərəb NATO-su" öncədən antiiran mövqedədir. Bu cür hərbi ittifaqın nə dərəcədə qalacağını demək çətindir. Tarixi təcrübə göstərir ki, bir neçə dəfə analoji qurum yaratmaq cəhdi olub. Hələ 1955-ci ildə Türkiyənin liderliyi ilə Yaxın Şərq ölkələrini birləşdirən hərbi-siyasi blok yaratmaq barədə Bağdad paktı işlənib hazırlanmışdı. Ancaq sonralar Vaşinqton və Təl-Əviv bundan Türkiyənin daha çox geosiyasi-hərbi dividend götürəcəyini bəhanə edərək, prosesi dayandırıblar.

Digər cəhdlərin də aqibəti eyni cür olub. Lakin bu dəfə amerikalılar Səudiyyə Ərəbistanına üstünlük verməklə həm də Türkiyəyə xəbərdarlıq edirlər. Ankara təbii ki, öz mövqeyində qalır. Bununla yanaşı, ekspertlər Ər-Riyadın belə bir təşkilatda liderlik edə bilmək potensialının mövcudluğuna şübhə edirlər. Birincisi, Qaşıqçı cinayəti göstərdi ki, Salman iqtidarı təqdim edildiyi kimi şəffaf deyil. İkincisi, öncədən antiiran məqsədli bir təşkilat yaradılırsa, ərəb dövlətlərinin öz içində bununla razılaşmayanlar vardır. Məsələn, Suriya, İraq, Livan və d. Onda faktiki olaraq "ərəb NATO-su" ərəbləri birləşdirmir, onları yeni prinsip üzrə parçalayır. Bu isə həm təşkilatın varlığını sual altına alır, həm də Yaxın Şərqi daha dərin uçuruma aparır.

Vurğulanan səbəblərdən "ərəb NATO-su" layihəsinin həqiqi məqsədləri üzərində düşünməyin vacib olduğu qənaəti yaranır. Onu ABŞ və İsrailin ortaq planı adlandırırlar. Başlıca məqsədi isə Yaxın Şərqdə geosiyasi qüvvələr nisbətini İsrailin xeyrinə dəyişməkdən ibarətdir. Bunun üçün diqqəti "dağıdıcı İran"ın üzərinə yönəldirlər. Həm də bu prosesdə özləri ancaq logistik dəstək verən tərəf kimi iştirak etmək niyyətindədirlər. Meydanda isə ancaq müsəlmanlar olmalıdırlar. Yəni müsəlmanlar bir-birini əzməli, qırmalı, geosiyasi qazanc isə kənarda oyunu təşkil edənlərə olmalıdır.

Məsələnin bu tərəfi çox ibrətamizdir. Çünki Yaxın Şərqin bir sıra dövlətlərinin liderlik hərisliyi üzərində oyun qurulur. Səudiyyə Ərəbistanı ilə İran təsir dairəsi uğrunda məzhəb mənsubluğundan tutmuş hər bir üsula əl atırlar. İndi İranın Yaxın Şərq ölkələrində hərbi bazalar və zavodlar tikdiyi bildirilir. Məsələn, Suriya və Livanda bu prosesin getdiyini deyirlər. Amerika və İsrail isə həmin regionda, ümumiyyətlə, Tehranın zəifləməsi üçün çalışırlar. Bu məqsədə çatmaq üçün bəzi ərəb ölkələrindən istifadə edirlər. Onların önündə Səudiyyə Ərəbistanı gəlir.

### İkinci təhlükə: terrorla mübarizədə anlaşılmazlıq

Nəticədə, Yaxın Şərq üçün çox qarışıq, təhlükəli və risklərlə dolu bir vəziyyət yaranır. Faktiki olaraq regionun böyük dövlətləri bir-biri ilə savaşa girməyə yaxınlaşırlar. Bunun mümkün nəticələrini təsəvvür etmək çətin deyildir. Əvvəla, İslam aləmi parçalanır. İkincisi, ərəb dünyası ikiyə bölünür. Üçüncüsü, region mənasız və süründürməçi ixtilaflar prosesinə sürüklənir. Dördüncüsü, bundan daha çox kənarda duran dövlətlər yararlanır.

Sonuncu məqamın da bir neçə aspekti var. Deyək ki, İslam sivilizasiya kimi inkişaf potensialını itirir. Müsəlmanların birləşməsi imkansız hala gəlir. Onların dövlətçilikləri inkişaf perspektivindən məhrum olur. Ölkələr xarabalıqlara çevrilir və onları bərpa etmək yenə də kənarda duranlara qalır ki, bu da əlavə gəlir mənbəyidir. Yəni həm dağıdırılar, həm də sonradan dağılanların pulları hesabına ölkələri bərpa edib, bütün mənalarda özlərindən asılı vəziyyətə salırlar.

Bu kimi proseslərə rəvac verəcək "ərəb NATO-su" nəyə lazımdır? Bu suala, belə məlum olur ki, müsəlmanlar arasında cavab axtaran yoxdur. Olsa da, onların gücü heç nəyə çatmır. Ər-Riyad isə öz rolunu oynamaqda davam edir. Görünür, orada hakim olan qüvvələrə hakimiyyətdə qalmaq üçün müəyyən təkliflər edilib. Bəlkə də başqa bir faktor rol oynayır, hər bir halda, bu olay ərəblərin özləri üçün sərfəli görünmür.

Lakin Yaxın Şərqdə geosiyasi mənzərəni dəyişə biləcək başqa faktor da mövcuddur. Bu, Suriya və İraqla bağlı yaranmış vəziyyətdir. Suriyada Türkiyə və Rusiyanın əməkdaşlığı məlumdur. Bu iki böyük dövlət artıq bir müddətdir ki, orada uğurlu əməkdaşlıq edirlər. Lakin İdlib və Münbic məsələsində fikir ayrılıqları qalmaqdadır. Rusiya İdlibdə terrorla mübarizədə israr edir, Türkiyə isə Münbicdə. Son olaraq bu iki dövlətin həmin mövzuda razılığa gələ bilmədikləri haqqında informasiyalar yayılır. Türkiyə isə Münbicə hücum etmək planından imtina etməyib. Onda müəyyən məqamda Suriyada Rusiya ilə Türkiyə arasında ziddiyyət yaranar ki, bu da bütövlükdə Yaxın Şərqdə geosiyasi dinamikanı yeniləyə bilər.

Bu aspektdə Tehranı da unutmaq olmaz. İran Suriyada hərbi varlığını daha da genişləndirir. Üstəlik, onun İraqda da hərbi əməliyyatlar aparmaq niyyətinin olduğundan danışılır. Artıq Suriyada İsrail İrana məxsus hədəfləri havadan vurur. Rusiya isə buna elə də etiraz etmir. Deməli, ola bilsin ki, Rusiya İranı əvvəlki kimi müdafiə etmək fikrində deyil. Əgər belə bir fakt varsa, onda Suriyada hadisələr çox riskli bir mərhələyə qədəm qoya bilər. İranın "geosiyasi atəş hədəfi"nə alınması daha böyük miqyasda xaosun meydana gəlməsinə rəvac verəcək. Bu halda heç bir region dövləti üçün salamat qurtarmaq şansı qalmır. Çünki İran böyük dövlətdir və onun silkələnməsi bütün regiona ağır zərbələr vura bilər. Məhz bu səbəbdən Yaxın Şərqdə Rusiya-Türkiyə əməkdaşlığı və İranın bu prosesdə yeri və rolu məsələsi daha çox önəm kəsb etməyə başlayıb.

Beləliklə, Yaxın Şərq tədricən iki böyük "geosiyasi axın"ın məkanına çevrilir. İsraildəki seçkilər göstərir ki, Qərb bu istiqamətdə fəaliyyətini gücləndirəcək. Ekspertlərə görə, əslində, "ərəb NATO-su" ideyası da Donald Trampın yenidən seçilməsinə xidmət edir. Vaşinqtonu Yaxın Şərqdə uğur qazanan güc kimi göstərirlər. Deməli, indiki məntiqlə proseslər davam etsə, Yaxın Şərq ciddi təhlükələrlə dolu vəziyyətə düşə bilər.

Əlbəttə, məsələ yalnız həmin regionla məhdudlaşmaya bilər. Proseslər tədricən Qafqaza və Mərkəzi Asiyaya da yayıla bilər. Bu da həmin regionlarda yeni risk mənbələrinin yaranması, terror dalğasının güclənməsi deməkdir. Ermənilərin Dağlıq Qarabağda terror qrupları yaratdıqları haqqında yayılan informasiyalar bu baxımdan düşündürücüdür. Bu proses daha fəlakətli hadisələrin əsasını qoya bilər.

Bunlar indi Yaxın Şərqdə planlaşdırılan hadisələrin yaxın gələcəkdə geniş bir geosiyasi məkanda böyük fəlakətlərə səbəb ola biləcəyi qənaətinə gətirir. Meydanda olan oyunçular kifayət qədər güclüdürlər. Onlar böyük hərbi potensiala malikdirlər. Dağıdıcı silahları var. Ancaq, deyəsən, əsas keyfiyyətə, dialoq aparmaq qabiliyyətinə malik deyillər.

**Newtimes.az**

---

# Araba kölgəsinə sığınan ermənilər qorxu içində



**Vəli İlyasov**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 12-dən müxtəlif qoşun növlərinin hərbi hissələrinin birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimlərin beş gün davam etməsi işğalçı Ermənistanda təşvişlə qarşılanıb.**

Xatırladaq ki, təlimlərə 25.000 nəfərədək şəxsi heyət, 250-dək tank və digər zirehli texnika, 1000-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəşi sistemi və minaatan, 50-dək müxtəlif təyinatlı ordu və döyüş aviasiyası cəlb olunmuşdu.

Azərbaycanda keçirilən irimiqyaslı hərbi təlimlər Ermənistanı əməlli-başlı silkələyib. Hətta mətbuatda verilən məqalələrdə bu qorxu açıq ifadə olunur. Vyana görüşündən sonra Ermənistanın müdafiə naziri David Tonoyanın "yeni müharibə yeni ərazilərdir" kimi sərsəm bəyanatı Dağlıq Qarabağ münaqişəsi ətrafında hərbi ritorikanı qızışdırdı. Xüsusilə, Azərbaycan tərəfinin bununla bağlı verdiyi bəyanatlar Ermənistanda ciddi narahatlıqlar yaratdı.

Vyana görüşündən sonra Prezident İlham Əliyev "Müharibə hələ bilməyib" bəyanatını verdi. Ardınca müdafiə naziri Zakir Həsənov bildirdi ki, "Əgər ermənilər hücuma keçəcəksə, Tonoyanla İrəvanda görüşəcəm". Məhz bu fikirlər ermənilərin qorxularının daha da artmasına səbəb olub.

Ermənistan mediası artıq bir neçə gündür ki, "Həsənov Tonoyanla İrəvanda görüşəcək" fikirlərini şərh edir, "Tonoyan Həsənovu İrəvanda qarşılamağa hazırdırmı" sualı üzərində müzakirələr aparırlar. İrəvandakı müzakirələr erməni hərbi birləşmələrinin döyüş qabiliyyətinin zəifliyi, nizam-intizamın olmadığı, orduda rüşvətxorluq barədə məlumatlar fonunda davam edir.

Erməni şərhçi Aram Sarkisyan yazır ki, Ermənistan ordusundakı problemlər təcili şəkildə həll olunmalıdır.

"Bu gün orduda problemlər hələ də qalır. Mövcud vəziyyət ordunun müharibə aparması üçün adekvat deyil. Buna görə də Tonoyan indidən Həsənovu İrəvanda necə qarşılayacağı haqqında düşünməlidir", - deyə o bildirib. Ermənistan ordusunun generalı Ter-Tadevosyan hətta mətbuata açıqlamasında bildirib ki, indiki ordu ilə döyüş əməliyyatları aparmaq mümkün deyil. Çünki Azərbaycan Ordusu Ermənistan ordusunu bütün parametrlər üzrə dəfələrlə üstələyir.

Bəzi sərsəm ermənilər isə vəziyyətdən çıxmaq üçün beynəlxalq təşkilatlara ərizə ilə şikayət etməyi məsləhət görüblər. Onlar təlim keçirərkən qonşu ölkələrin razılığının alınmasını tələb edəcəklərini bildiriblər. Sual yaranır: Ermənistan Azərbaycan torpaqlarını işğal edəndə, bir milyona qədər insanı yurdundan didərgin salanda, on minlərlə azərbaycanlının qanını axıdanda və başqa hərbi cinayətləri törədəndə qonşu ölkələrdən və beynəlxalq təşkilatlardan icazə almışdımı? İşğal edilmiş torpaqlarını azad etmək üçün biz kimdən icazə almalıyıq?

Görəsən, istehza doğuran bu suallı ermənilər necə izah edə bilərlər? İndi xarici havadarlarından əlləri üzülən ermənilər gülünc bəyanatlar verir, qorxduqlarını açıq ifadə edir, üstəlik haray-həşir salaraq dünyadan kömək istəyirlər.

Əlbəttə, onlar yaxşı bilirlər ki, Ermənistan ordusu Azərbaycan Ordusunun qarçısında tab gətirə bilməz. David Tonoyan və bəzi onun kimilərinin qara-qorxu gəlməsi isə araba kölgəsinə sığınan qorxaq köpəyin gəlib-gedənə hürməsinə bənzəyir.



## Dağıdıcı müxalifətin deqradasiyası:

# "Diqlas"dan Notr-Damadək...

Zahid Rza

**Aprelin 15-də Fransa paytaxtında yerləşən XII əsrə aid Paris Notr-Dam kilsəsində (Notr-Dam de Pari) yanğın baş verdi. 10 saatdan çox davam edən yanğın nəticəsində kilsə üzərindəki uzun qüllənin bir hissəsi aşıb, həmçinin məbədin saatı yanaraq məhv olub. Fransa rəsmilərinin bildirdiklərinə görə, "Notr-Dam-de-Pari" kilsəsində baş vermiş yanğın zamanı üç nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Dövlətin rəsmiləri açıqlama verərək yanğından sonra kilsənin bərpasının çətin olacağını açıqlayıblar. Fransa Prezidenti Emmanuel Makron isə kilsənin bərpa edilərək yenidən əvvəlki vəziyyətə qaytarılacağına söz verib. Makron xalqa müraciətində tarixi kilsəni beş il ərzində bərpa etməyi nəzərdə tutduqlarını bildirib. Artıq Notr-Dam kilsəsinin dağılan şpilini bərpa etmək üçün beynəlxalq memarlıq müsabiqəsi keçiriləcəyi barədə məlumatlar yayılıb.

Əslində bu məlumatları tam təfsilatı ilə verməkdə bir məqsədimiz var. Məsələ ondadır ki, Parisdə ildə yüz minlərlə turistin ziyarət etdiyi 800 illik bir tarixi abidə yandı, fransız müxalifətçilər Azərbaycan müxalifətinin pozucu, dağıdıcı kəsimi kimi haray-həşir qopararaq yanğına görə Fransa hökumətini ittiham etmədilər, iqtidarın əleyhinə əsassız iddialar səsləndirmədilər. Əksinə, əsrlərin yadigarı və Parisin simvollarından olan bu tarixi mədəniyyət abidəsinin bərpası üçün əllərindən gələni etməyə hazır olduqlarını bildirdilər. Bu gün artıq güclü yanğından zərər görən "Notr-Dam de Pari" kilsəsinin bərpası üçün toplanan ianələrin miqdarı 1 milyard avroya çatıb. Vəsait əsasən böyük şirkətlərdən və iş adamlarından, eləcə də Fransa Mədəniyyət Nazirliyi tərəfindən seçilmiş dörd ictimai fonddan daxil olur. Qurum rəhbəri Frank Riester "Twitter" səhifəsində kilsənin bərpası üçün maliyyə yardımının göstəriləcəyi internet portalın açıldığını bildirib.

Fransız müxalifətçilər öz ölkələrində Notr-Damdakı yanğınla bağlı əsl vətəndaşlıq mövqeyi sərgilədilər. Bəs AXCP və "Milli Şura" başda olmaqla bu gün antimilli fəaliyyətlərinə, inkarçı, pozucu mövqelərinə görə cəmiyyətimiz tərəfindən təcrid olunan, marginallaşan dağıdıcı müxalifət necə, ölkəmizdə belə yanğınlar, təbii fəlakətlər zamanı əsl vətəndaş mövqeyi sərgiləyə bilirlərmi? Əsla və əsla yox!

Əksinə onlar ölkədə baş verən yanğınlardan, sel və daşqınlardan, texnogen hadisələrdən, zəlzələlərdən, bir sözlə, təbii fəlakətdən siyasi dividentlər qazanmaq üçün iqtidar əleyhinə əsassız, şər-böhtan dolu kampaniya aparırlar. Təbii ki, dağıdıcı müxalifətin təbii fəlakətdən siyasi kampaniya kimi istifadə etməsinin arxasında ancaq çirkin niyyətlər durur.

Onların əksinə olaraq dövlətimizin başçısı təbii fəlakətə məruz qalan bölgələrə baş çəkir, orada yaşayan insanlarla birbaşa təmasda olur, onların dərd-sərlərini dinləyir, o bölgədəki əhalinin təhlükəsizliyinin təmin olunması, onlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması, təhlükənin aradan qaldırılması üçün göstərişlər verir, problemlərin aradan qaldırılması üçün Fərman və sərəncamlar imzalayır.

Elə martın 26-da Bakı şəhəri, Nizami rayonu ərazisində yerləşən "Diqlas" ticarət mərkəzində baş verən yanğınla bağlı ölkə başısının mövqeyi ictimaiyyətimiz tərəfindən alqışla qarşılandı. Belə ki, "Diqlas"dakı yanğın Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən xüsusi nəzarətə götürüldü. "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar zərərçəkmiş sahibkarlarla operativ əlaqələrin qurulması və onlara dəstək göstərilməsi işlərinin koordinasiyalı təşkili üçün Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən İqtisadiyyat Nazirliyində İşçi Qrupu yaradıldı. Ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar ziyan dəymiş sahibkarların problemlərinin öyrənilməsi məqsədilə İşçi Qrupu tərəfindən cari ilin 29-31 mart tarixlərində onların hər biri ilə qabaqcadan razılaşdırılmaqla müəyyən olunmuş vaxtlarda fərdi qaydada görüşülərək dinlənilməsi həyata keçirildi.

Bütün bunlar bir daha göstərdi ki, dövlətimiz ən ağır zamanlarda öz vətəndaşının yanındadır. İyimi ildən artıq çox müddətdə pozucu, inkarçı və qeyri-konstruktiv mövqeyi ilə tanınan, Azərbaycan əleyhdarları ilə işbirliyinə girərək antimilli fəaliyyət göstərən, marginallaşaraq özünü cəmiyyətdən təcrid edən, bütün bunlara görə də siyasi səhnədən silinib gedən dağıdıcı müxalifətin əsl siması ölkədə baş verən belə yanğınlar, təbii fəlakətlər zamanı dəfələrlə üzə çıxıb. "Diqlas"da və Notr-Damda baş verən yanğınların ətrafında baş verən hadisələrin müqayisəsi fonunda onların simasızlığı isə bir daha ortaya çıxdı.

# Bədxahların əməlləri



**Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət ölkəmizin davamlı inkişafını təmin edən əsas amillərdir. Bu siyasətin nailiyyətlərinin qaynağı onun milli maraqlara söykənməsi və xalq tərəfindən dəstəklənməsi ilə bağlıdır. Dövlət başçısı özü də dəfələrlə aparılan siyasətin Azərbaycan xalqının milli maraqlarına əsaslandığını bəyan edib və bildirib ki, bu siyasətin mərkəzində vətəndaşın təhlükəsizliyi və rifah halının yaxşılaşdırılması dayanır.**

Bu siyasət nəticəsində Azərbaycanın iqtisadi gücü artıb, əhalinin yaşayış səviyyəsi yüksəlib və ölkəmiz beynəlxalq arenada söz sahibinə çevrilib. Son 15 ildə yürüdülən siyasət nəticəsində Azərbaycan özünü hərtərəfli təmin edən, rəqabətədavamlı ölkələr sırasına daxil olub. Regionda reallaşdırılan transmilli enerji və nəqliyyat layihələri sayəsində ölkəmizin strateji mövqeləri daha da güclənib.

Azərbaycanın dünya miqyasında nüfuzunun artması həm də ölkəmizin apardığı müstəqil siyasətlə bağlıdır. İqtisadi güc və müstəqillik Azərbaycana beynəlxalq arenada öz iradəsini tətbiq etmək imkanı yaradır. Ölkəmiz dünyanın aparıcı güc mərkəzləri, qonşu dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx əməkdaşlıq əlaqələri qurur, bir sıra regional əməkdaşlıq formatlarının təşəbbüskarı və fəal iştirakçısı kimi çıxış edir.

Hazırda Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə strateji tərəfdaşlıq sazişinin hazırlanması yekun mərhələyə qədəm qoyub. Bu, ölkəmizin beynəlxalq arenada nüfuzunun artmasına daha da təkan verəcək. Bu il Azərbaycanın dünyanın 120-dən artıq ölkəsini birləşdirən Qoşulmama Hərəkatına rəhbərlik edəcəyi də bu qəbildən olan faktlardandır.

Bütün bu sadalananlar Prezident İlham Əliyevə xalqın böyük etimad göstərməsini şərtləndirən amillərdəndir. Bunun bariz və son nümunələrindən biri Fransanın "Opinion Way" şirkətinin bu yaxınlarda keçirdiyi rəy sorğusudur. Sorğunun nəticələrinə görə, xalqın 90,5 faizi dövlət başçısının həyata keçirdiyi siyasəti tam dəstəkləyir.

Lakin belə vəziyyət təbii ki, Azərbaycanın bədxahlarını ciddi narahat edir. Xüsusilə ölkəmizin nüfuzunun artmasından narahat olan Ermənistan, beynəlxalq erməni lobbisi və xaricdəki bəzi anti-Azərbaycan qüvvələr Azərbaycana qarşı kampaniyaların genişlənməsində maraqlıdır. Bu qüvvələr Azərbaycanın uğurlarına ləkə yaxmaq, onu nüfuzdan salmaq üçün zaman-zaman, xüsusilə böyük tədbirlər ərəfəsində çirkin kampaniyalar təşkil edirlər. Anti-Azərbaycan mərkəzlərin əlində alətə çevrilən "Trensparency İnternational", "Amnisty International", OCCRP və digər bu kimi qurumlar ölkəmiz və onun başçısı haqqında yalan, böhtan xarakterli məlumatlar yayır, Azərbaycanı beynəlxalq qınaq obyektinə çevirməyə, ölkə daxilində "5-ci kolon" vasitəsilə ictimai narazılıq formalaşdırmağa cəhd edir. Diqqətlə yanaşdıqda bu çirkin kampaniyanın indiki məqamda yenidən qızışdırılmasının təsadüfi olmadığı aydın olur. Qarşıdan Azərbaycanın uğurla həyata keçirdiyi və ev sahibliyi edəcəyi bir sıra tədbirlər gözlənilir. Bu il Cənub Qaz Dəhlizi layihəsinin tamamlanacağından, Azərbaycanla Aİ arasında strateji tərəfdaşlıq sazişinin imzalanacağından, ölkəmizin Qoşulmama Hərəkatına sədrlik edəcəyindən ciddi narahat olan qüvvələr artıq ölkəmizə qarşı növbəti qarayaxma kampaniyasına start veriblər.

Burada Avropa İttifaqı ilə Azərbaycan arasında yaxın tarixdə imzalanması gözlənilən strateji saziş layihəsini ayrıca vurğulamaq lazımdır. Son zamanlar bəzi antimilli ünsürlər müxtəlif platformalarda çıxış edərək tamamilə əsassız şəkildə Azərbaycanla Avropa İttifaqı arasında sazişlə bağlı aparılan danışıqları əngəlləməyə çalışırlar. Bu məsələ ilk növbədə Ermənistanı ciddi narahat edir. Ermənistan öz havadarları vasitəsilə bu sazişə zərbə vurmağa cəhd göstərir. Təəssüfedici amillərdən biri də odur ki, bu məsələdə ölkəmizin daxilində olan "5-ci kolon" üzvləri də ermənilərin dəyirmanına su tökməklə məşğuldurlar.

Aİ ilə imzalanacaq sazişdə Ermənistanı və onun havadarlarını təşvişə salan əsas məsələlərdən biri Azərbaycanın diktəsi ilə sözügedən sazişə ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin ayrıca bənd kimi daxil edilməsidir. Bu, işğalçı ölkənin beynəlxalq aləmdə bir daha mövqelərini zəifləndəcəkdir.

Bundan əlavə, saziş Azərbaycanın Avropa ölkələri ilə iqtisadi əməkdaşlığını daha da dərinləşdirəcək və ölkəmizin iqtisadi maraqlarının yüksək səviyyədə təmin edilməsinə əsas yaradacaqdır. Belə olan halda anti-Azərbaycan qüvvələrin bu təşvişi başadüşüləndir. Lakin hər zaman olduğu kimi, bu dəfə də onlar Azərbaycanın müstəqil iradəsi qarşısında aciz qalacaqlar.

**Taleh Turqut,**
***"İki sahil"***

# Fuad Qəhrəmanlının qızına hücum edən şəxs müxalifətçi imiş

**Fuad Qəhrəmanlının qızına qarşı zorakılıq edən şəxsin müxalifətçi olduğu bildirilir.**

**Hilal Sosial Araşdırmalar İctimai Birliyinin sədri Arzuman Abdulkərimov sosial şəbəkədə bu barədə paylaşım edib:**

**"Deməli, bir neçə gün öncə, Tural Qarayev adlı şəxs küçədə gənc qıza (fərqi yoxdur, qızcığaz kimdi, kimin qızıdı) qarşı zorakılıq törədib. Həmin an sosial şəbəkədə bu şəxsin YAP üzvü olduğu dövriyyəyə buraxıldı. Bu məsələni araşdırmağı özümə borc bildim. Həmin videoya bir neçə dəfə baxdıqdan sonra qərara gəldim ki, bu şəxs anlaqsız birisidir. YAP-da olan əlaqələrim vasitəsilə Turalın heç vaxt YAP üzvü olmadığını dəqiqləşdirdim.**

**Turalın müxalifətin bütün tədbirlərində iştirak etməsini, Məhsul stadionundakı mitinqlərdə iştirakını, müxalifət liderləri ilə və onlara yaxın şəxslərlə sıcaq görüntülərini əldə etdim".**







# YAP gənclər arasında kartinq yarışı keçirdi



Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə hər zaman müxtəlif formada dəstək olan Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi (YAP GB) öz ənənəsini davam etdirməkdədir. Belə ki, aprelin 26-28-də Bakıda keçiriləcək Formula-1 Azərbaycan Qran-prisinə dəstək məqsədilə dünən YAP-ın Gənclər Birliyi tərəfindən patiyanın Bakı, Sumqayıt şəhər və Abşeron rayon təşkilatlarının gənclər birlikləri arasında "YAP K-2019" adlı kartinq yarışı keçirildi.

"Elit" Ticarət və Əyləncə Mərkəzində keçirilən tədbirdə YAP Gənclər Birliyinin sədri Seymur Orucov yarışın mahiyyəti barədə məlumat verdi: "Bildiyiniz kimi, artıq bir neçə ildir Bakı dünyanın ən elit idman yarışlarından olan Formula-1 oyunlarına ev sahibliyi edir. Təbii ki, belə bir mötəbər yarışa ev sahibliyi etmək üçün müəyyən standartlar var. Sevindirici haldır ki, doğma Bakımız cənab Prezident İlham Əliyevin həyata keçirdiyi düzgün və məqsədyönlü siyasət nəticəsində yarışın keçirilməsi üçün bütün standartlara yüksək səviyyədə cavab verir. Bakıda daha əvvəl keçirilən 3 Qran-Pri Avropada özünəməxsus unikallığı ilə seçilir. Belə ki, bu yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edərək paytaxtımızın ən qədim hissəsi olan və UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğunun ətrafında dövr edir, paytaxtın digər tarixi yerlərini görürlər. Bundan başqa, Bakıya gələn turistlərin sayı da ciddi şəkildə artmaqdadır. Bütün bunlar isə ölkəmizin tanınması, turizm və digər müxtəlif sahələrin inkişaf etməsi baxımından olduqca vacibdir. Bu baxımdan YAP gəncləri də ölkəmizdə keçirilən bu idman tədbirinə daha da marağın artırılmasına dəstək olurlar".

Sonra püşkatma mərasimi keçirildi və komandalar 3 qrupda mübarizəyə başladılar. Yarışın sonunda YAP Nərimanov rayon təşkilatının Gənclər Birliyi birinci yerə sahib çıxdı. Sonda qaliblər kubok və diplomlarla təltif edildilər.

**Taleh Bağırov,**
***"İki sahil"***

# Yubiley mükafatını Hacı Əliyevə Aprel şəhidinin atası təqdim etdi

Aprelin 18-də Beynəlxalq Mətbuat Mərkəzində (BMM) "Olimpsport" jurnalının yaranmasının 10 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, "Olimpiya dünyası" qəzetinin baş redaktor müavini, Əməkdar jurnalist Aslan Şirəliyev, Azərbaycan Güləş Federasiyasının sərbəst güləş üzrə vitse-prezidenti Firdovsi Umudov, 1-S kateqoriyalı hakim Hicran Şərifov və Azərbaycan Voleybol Federasiyasının baş katibi Elşən İsmayılov, eləcə də idman ictimaiyyətinin tanınmış nümayəndələri və Aprel şəhidlərinin ailə üzvləri də iştirak ediblər.

Çıxışlardan əvvəl jurnalın 10 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib. Videoçarxda "Olimpsport" jurnalının təbliğ etdiyi idman və Olimpiya Hərəkatını əks etdirən görüntülərlə yanaşı, cəmiyyətdə nüfuz sahibi olan tanınmış şəxslərin bu nəşr barəsində söylədikləri fikirlərdə öz əksini tapıb.

Sonra Azərbaycan Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov çıxış edərək bildirib ki, ölkəmizdə idmanın bu inkişafında "Olimpsport" jurnalının özünəməxsus yeri olub. Deputat çıxışının sonunda jurnalın baş redaktoru Ramin Allahverdiyevə idman jurnalistikasının inkişafında səmərəli fəaliyyətinə, 10 illik yubiley münasibətilə diplom təqdim edib.

"Olimpiya dünyası" qəzetinin baş redaktor müavini, Əməkdar jurnalist Aslan Şirəliyev, Azərbaycan Güləş Federasiyasının sərbəst güləş üzrə vitse-prezidenti Firdovsi Umudov, 1-S kateqoriyalı hakim Hicran Şərifov və Azərbaycan Voleybol Federasiyasının baş katibi Elşən İsmayılov "Olimpsport" jurnalının rəhbərliyi və yaradıcı heyəti barəsində öz fikirlərini bildiriblər.

"Olimpsport" jurnalının baş redaktoru, sərbəst güləş üzrə



Əməkdar məşqçi, Fəxri bədən tərbiyəsi və idman işçisi Ramin Allahverdiyev tədbir iştirakçılarına öz minnətdarlığını bildirib. Çıxışlar başa çatdıqdan sonra Azərbaycan Mətbuat Şurası, "Olimpiya dünyası" qəzeti və "Olimpsport" jurnalının birgə keçirdiyi sorğu əsasında "son 10 ilin ən yaxşıları" nominasiyası üzrə nəticələr açıqlanıb. Müxtəlif nominasiyalar üzrə "Qızıl 10-luq"da yer alanlara mükafatlar təqdim olunub. Mükafatların təqdimatı zamanı jurnalın baş redaktoru Ramin Allahverdiyevin təşəbbüsü ilə son 10 ilin ən yaxşı dünya çempionu nominasiyasını bu ay Avropa çempionu olub, qələbəsini aprel şəhidlərinə həsr edən Hacı Əliyevə mükafatı şəhid Mahir Quliyevin atası təqdim edib.

Tədbir bədii hissə ilə davam edib.

# Almaniyalı müəllim və tələbələr "Ulduz" Şokolad Fabrikində

**Almaniyanın Siegen Universitetinin müəllim və tələbə heyəti Azərbaycanda kiçik və orta sahibkarlıq mövzusunun araşdırılması məqsədilə "Ulduz" Şokolad Fabrikinə səfər edib. Fabrikdə baş tutan görüşün məqsədi Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə Siegen Universiteti arasında tələbə və təhsil təcrübəsinin mübadiləsini nəzərdə tutan "EE-KEY-AZ Sahibkarlıq təhsili: Azərbaycanda iş yerlərinin yaradılması və məşğulluğun əsas amili kimi" (EE-KEY-AZ Entrepreneurship Education: a Key to Job Creation and Employability in Azerbaijan) layihəsinə dəstək göstərmək olub.**

Tədbirin açılışını edən "Ulduz" Şokolad Fabrikinin İctimaiyyətlə əlaqələr bölməsinin müdiri Afaq İbrahimova qonaqları salamlayaraq, onlara və Azərbaycan Dövlət İqtisad Universitetinin nümayəndələrinə sözügedən mövzunun araşdırılması üçün məhz "Ulduz" Şokolad Fabrikini seçdiklərinə görə təşəkkürlərini bildirib. Ardınca fabrikin tarixi, fabrikdə istehsal olunan məhsullar və s. haqqında qonaqlara ətraflı məlumat verilib, daha sonra isə onlara istehsal sahəsi göstərilib.

Görüşün davamında Siegen Universitetinin Ailə biznesi və sahibkarlıq kafedrasının müdiri Petra Mug, həmçinin UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentinin Xarici əlaqələr şöbəsinin müdiri vəzifəsini icra edən Afət Ələkbərova fabrikə universi-



tet və tələbələr adından təşəkkürlərini bildirib, məlumatlandırma tədbirinin yüksək səviyyədə təşkil olunduğuna görə xüsusi minnətdarlıqlarını ifadə ediblər.

Sonda qonaqlarla birlikdə xatirə şəkli çəkdirilib, onlara "Ulduz" Şokolad Fabriki adından hədiyyələr təqdim olunub.

Qeyd edək ki, "Ulduz" Şokolad Fabrikində "Açıq qapı" siyasəti həyata keçirilir və maraqlanan hər kəs, fərdi və ya qrup şəklində fabrikə səfər edə, istehsalat prosesini yaxından izləyə bilər.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Ermənistan ordusunda dəhşətli faktlar necə gizlədilir?



**Sevinc Azadi**

Ermənistan hakimiyyəti bütün üsullardan istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hətta bunu hüquqi cəhətdən rəsmiləşdirməyə və zor gücünə öz xeyrinə məhkəmə qərarlarının çıxarılmasına da nail olur. Lakin bütün bu qadağalara baxmayaraq sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, Ermənistan ordusunda vəziyyət göründüyündən də qat-qat acınacaqlıdır. Ordudakı ədalətsizliyin, aclığın, səfalətin və digər neqativ halların qurbanları fiziki və psixoloji cəhətdən zəif, düşdüyü mühitə uyğunlaşa bilməyən gənc əsgərlərdir. Bu vəziyyətdən yeganə çıxış yolunu isə onlar intiharda, özlərinə müxtəlif bədən xəsarətləri yetirməklə xidmətdən boyun qaçırmaqda görürlər.

Təsadüfi deyil ki, Ermənistan Silahlı Qüvvələrində baş verən korrupsiya halları ötən illərlə müqayisədə 66 faiz çoxalıb. Bunu ölkənin hərbi prokuroru Vaqe Arutyunyan bildirib. Ötən ilin yekunlarına dair Hərbi Prokurorluqda keçirilən müşavirədə çıxış edən V.Arutyunyan deyib ki, həmin hadisələrdən 173-ü üzrə cinayət işi başlanılıb. Onun sözlərinə görə, 86 nəfər barəsində başlamış 43 cinayət işi məhkəməyə göndərilib. Hərbi prokurorun sözlərinə görə, orduda törədilən ağır cinayət hallarının sayı 9 hadisə, yaxud 8,1 faiz artıb. Qeydə alınan xüsusi ilə ağır cinayətlərin sayı isə 43 hadisə olub. Bunlardan biri hərbçinin öz xidmət yoldaşını qətlə yetirməsi cinayətidir. Digər hadisə zamanı isə mülki şəxs hərbçini öldürüb. V.Arutyunyan qeyd edib ki, iki halda hərbçilərin bir-birini qətlə yetirməsi cəhdinin, rəis tərəfindən güc tətbiqinin, habelə 7 dəfə vəzifəli şəxsin rüşvət alması cəhdinin qarşısı alınıb. Ötən il hərbçilər 1173 halda bir-birinə ağır bədən xəsarəti yetiriblər.

Ötən ay Ermənistanın Meğri rayonunda yerləşən Aqarak batalyonunda baş verən hadisə Ermənistan ordusundakı vəziyyətin nə qədər acınacaqlı və biabırçı bir hal aldığını nümayiş etdirmiş oldu. Belə ki, bir qrup hərbçi komandirin əmrlərinə tabe olmaqdan boyun qaçırmış, özləri üçün xüsusi xidmət şərtlərinin təmin edilməsi tələbi ilə çıxış etmişlər. Tələblər əsasən, yaşayış, geyim, qida və s. imtiyazlarla bağlı olub. Nəticədə komandirlə hərbçilər arasında uzun sürən qarşıdurma yaşanıb. Tabesizlik göstərən əsgərlər xidmətlərini davam etdirmək üçün cəbhə xəttində yerləşən Arsax və digər hərbi hissələrə göndəriliblər. Günlərlə oğullarının harada olduğundan xəbərsiz olan valideynlər bu çirkin və utancverici hadisənin ictimaiyyətə çatdırılması istiqamətində fəallıq nümayiş etdiriblər. Onların sözlərinə görə, hadisədə əsas günahkar əsgərlərə qarşı qanunsuz davranaraq onları bu addımı atmağa sövq edən komandirdir. Anaların birinin sözlərinə görə, qarşıdurmada, demək olar ki, bütün hərbi hissə, yəni bir neçə yüz əsgər iştirak edib.

Göründüyü kimi, Ermənistan ordusunda vəziyyət təsəvvür edildiyindən də ağırdır. Bir neçə ay öncə Ermənistan ordusunda olan çatışmazlıqların öyrənilməsi məqsədilə "Brevis" şirkətinin keçirdiyi sorğu bu ölkənin hərbi sistemində dəhşətli vəziyyətin olduğunu təsdiqləyib. Məlum olub ki, ordudakı acınacaqlı durum səbəbindən erməni gənclərin böyük əksəriyyəti müxtəlif bəhanələrlə hərbi xidmətdən yayınır. Belə gənclərin sayı 70 faiz təşkil edir. Sorğuya cəlb olunan keçmiş hərbçilərin 20 faizə yaxını yeməyin miqdarından və keyfiyyətindən, 40 faizdən çoxu isə hərbi əmlakın keyfiyyətsizliyindən narazı olduqlarını bildiriblər. Qeyd edək ki, sorğu yekunlaşdıqdan sonra Ermənistan müdafiə nazirliyi nəticələrin yalnız bir qisminin dərc edilməsinə icazə verib.

# STP-də neft-qaz sektorunun liderləri ilə görüş



Neft-qaz sektorunda fəaliyyət göstərən dünyanın bir neçə qlobal şirkətlərinin nümayəndələri Sumqayıt Texnologiyalar Parkında (STP) oldular.

Görüşdə "British Petrolium"un (BP) ümumilikdə yerli və xarici podratçı şirkətlərindən 30-a yaxın nümayəndə iştirak edib. Onlar BP-nin önəmli tərəfdaşlarından olan STP-nin imkanları ilə yaxından tanış oldular. Belə ki, neft-qaz nəhəngi BP həm yerli, həm də regional layihələrdə Texnoparkın imkanlarından yararlanmaqda olduqca maraqlıdır.

"Schlumberger", "Halliburton", "Tekfen", "Steadfast Engineering", "Saipem", "R&M", "Siemens", "Rapid Solutions" kimi lider şirkərlərin qatıldığı ziyarətin məqsədi onları Texnoparkın məhsulları, istehsal prosesi və texniki imkanları ilə tanış etmək olub. Belə ki, ölkəmizdə fəaliyyət göstərən xarici neft şirkətləri müxtəlif mexaniki emal detallarını və istifadə edilən əksər məhsulları idxal edirlər. Lakin STP-nin bütün beynəlxalq norma və standartlara cavab verən istehsal prosesi sayəsində bu məsələni həll etmək, ölkəmizin müvafiq sektorda idxaldan asılılığını azaltmaq mümkündür. Bu cür görüşlərin neft-qaz sektoru üçün idxal olunan məhsul və detalların Texnoparkda istehsal edilmə imkanlarını ortaya çıxarmağa kömək edəcəyi birmənalıdır.

Ziyarət zamanı əvvəlcə qonaqlarla STP-nin Baş ofisində görüş keçirilib. Görüşdə Texnoparkın Satış Departamentinin direktoru Çinarə Əliyeva şirkət nümayəndələrinə STP-nin yaranması, zavodları və istehsal olunan məhsulları barədə məlumat verib. Daha sonra qonaqların sualları cavablandırılıb.

Görüşdən sonra qonaqlar Texnoparkın Dəqiq Emal Zavodu, Mexaniki Emal Zavodu, Qaynar Sinkləmə Sexi və Elektrik Avadanlıqları Zavodunda istehsal prosesi və məhsullarla tanış oldular.

✍ **Orxan Vahidoğlu, *"İki sahil"***

# Superkompyuterin təqdimatı



Aprelin 18-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) bu ali məktəbin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinin (UFAZ) laboratoriyalarına səfər və UFAZ-ın gələcək superkompyuterinin təqdimatı keçirilib.

Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Orelia Buşez, şirkət rəhbərləri, ali məktəb nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Qonaqlar əvvəlcə UFAZ-ın Kimya mühəndisliyi, Üzvi kimya və Fizika laboratoriyaları ilə tanış oldular. Sonra elmi ekspert, professor Pyer Kole UFAZ-ın gələcək Superkompyuter proqramlarının tədqimatı ilə çıxış edib.

Strasburq Universitetinin doktorantı Ülviyyə Əbdülkərimova (UFAZ-ın Riyaziyyat müəllimi) tərəfindən Superkompyuter hesablama gücündən istifadə haqqında tədqiqat işinin qısa təqdimatını edib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# UNEC alimlərinin dünya elminə töhfəsi




Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov, UNEC-in İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun direktoru, professor Yadulla Həsənli və UNEC Biznes Məktəbinin direktoru, Harvard Universitetinin Davis Rusiya və Avrasiya Araşdırmalar Mərkəzində (Beyin Mərkəzində) oktyabr 2017-sentyabr 2018-ci il tarixində dəvətli tədqiqatçı, dosent Nazim Hacıyevin "Neftin dünya bazar qiyməti: təsir edən amillər və proqnozlaşdırma ("World Market Price of Oil: Impacting Factors and Forecasting (SpringerBriefs in Economics))" kitabı dünyanın tanınmış nəşriyyat evi və Elmi nəşrlərin Sosial-iqtisad və Təbiət Elmləri (SENSE) sahəsində resenziyalı yüksək kateqoriyalı "Springer" nəşriyyatı tərəfindən çap edilib.

Kitabın elmi redaktoru Harvard Biznes Məktəbinin professoru və Davis Rusiya və Avrasiya Araşdırmalar Mərkəzinin (Beyin Mərkəzi) direktoru, professor Ravi Abdelal və Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə, elmi rəyçiləri isə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və AMEA-nin İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nin müxbir üzvü, İspaniya Kral Akademiyasının akademiki Qorxmaz İmanovdur.

Kitabda qlobal iqtisadiyyatda baş verən yeni tendensiyalar və çağırışlar fonunda mühüm strateji əhəmiyyət daşıyan xam neftin dünya bazarlarında qiymətinə təsir edən amillər, 2020-ci ilə qədər neftin dünya bazar qiyməti və ilk dəfə olaraq Azərbaycan neftinin (AzerLayt) dünya bazar qiymətinin orta və uzunmüddətli dövr üçün elmi və praktik baxımdan əsaslandırılmış proqnozlaşdırmağa imkan verən ekonometrik (ARIMA, Trend və Hibrit) modelləri qurulub.

# Politoloq: "Bir kəmər, bir yol" layihəsi ölkələr arasında iqtisadi əməkdaşlığa böyük töhfədir



Dövlətimizin xarici siyasətində iki və çoxtərəfli əməkdaşlıq xüsusi yer tutur. Diplomatik əlaqələrinin 26 ili tamam olan Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişafı da bu silsilədəndir. Dövlətimizin başçısı İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində əlaqələrin bugünkü inkişafına və perspektivlərə bir daha işıq salıb.

**Politoloq Nəzakət Məmmədova mövzu ilə bağlı "İki sahil" qəzetinə** açıqlamasında bildirdi ki, Azərbaycanın dünyanın ən nəhəng ölkələrindən biri olan Çin ilə çox yaxın siyasi, iqtisadi, ticarət, hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələri mövcuddur: "Bu əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Çin Xalq Respublikasına səfəri ilə qoyulub. Prezident İlham Əliyevin də Çin Xalq Respublikasına 2005 və 2015-ci illərdə rəsmi səfərləri olub. Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkə Prezidentinin müsahibəsində də vurğulandığı kimi, Çin vətəndaşları üçün sadələşdirilmiş viza prosedurunun tətbiqi, Azərbaycanın Çinin təşəbbüsü əsasında Asiya İnfrastruktur İnvestisiya Bankını təsis etməsi, Çin şirkətlərinin Azərbaycanda fəaliyyəti uğurlu ikitərəfli əməkdaşlığımızın göstəricisidir."

Politoloq qeyd etdi ki, Azərbaycan Çinin "Bir kəmər-bir yol" təşəbbüsünü tam dəstəkləyir. Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yük daşımaları üçün ən qısa nəqliyyat marşrutu olaraq Avrasiyaya inteqrasiyasında çox mühüm rol oynayır.

"Ölkəmizin tarixi İpək Yolu üzərində yerləşməsi bizə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini uğurla həyata keçirən mərkəz ölkə olmaq imkanı yaratmışdır" söyləyən politoloq vurğuladı ki, Prezident haqlı olaraq bu layihələrin geosiyasi əhəmiyyətinə xüsusi diqqət çəkərək "Bir kəmər, bir yol" təşəbbüsünün ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə biləcəyini vurğulayıb: "Bu layihə mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəkləndirilməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu ay Pekində keçiriləcək "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu əlaqələrin inkişafı istiqamətində növbəti addım olacaq, məhsuldar şəkildə aparılacaq müzakirələr qarşıdakı dövrdə nəzərdə tutulan məqsədlərə öz müsbət təsirini göstərəcək."

✍ **Nilufər Mustafaqızı, *"İki sahil"***

## Ermənistanın təxribat cəhdləri:

# Ordumuz düşmənin bu "səhvini" səbirsizliklə gözləyir

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin aprelin 15-də Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə keçirilən görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin nizamlanması perspektivinə baxışlar müxtəlifdir.**

Bəzi ekspertlər hesab edirlər ki, görüşdən sonra səsləndirilən bəyanatlar nəzərə alınarsa, ciddi razılaşmalar olmasa da, tərəflər arasında bir sıra məsələlərdə ortaq mövqe əldə edilib. Bu, əsasən humanitar addımları və danışıqların davam etdirilməsini ehtiva edir. Digər qrup ekspertlərin fikrincə, Ermənistanın danışıqlar prosesində imitasiya etməsi və Vyana görüşündən sonra təcavüzkar ritorikanı artırması müharibənin yenidən alovlanması qənaətini artırır. Xüsusilə əraziləri işğal altında olan Azərbaycan cəmiyyətində münaqişənin hərbi yolla həlli variantının seçilməsi çağırışları artmaqdadır.

Qeyd edək ki, bir müddət əvvəl Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə "Müharibə hələ bitməyib" deyərək Ermənistan rəhbərliyinin sərsəm bəyanatlarına cavab olaraq münaqişənin həllinin hərbi variantının hələ də gündəmdə olduğunu xatırlatmışdı. Məhz Vyana görüşü ərəfəsində ABŞ-da erməni diasporu ilə görüşündə Ermənistanın müdafiə naziri David Tonoyan "yeni müharibə yeni ərazilərdir" açıqlamasını vermişdi. Bundan sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təxribat hücumlarının ola biləcəyi ehtimalı güclənib. Çünki D.Tonoyan bu bəyanatdan sonra bir neçə dəfə Ermənistan-Azərbaycan dövlət sərhədinə gəlib və müşahidələr aparıb. Onun belə səfərlərindən sonuncusu aprelin 13-də Gədəbəy rayonunun Başkənd qəsəbəsi sərhədinə olub. Xatırladaq ki, ermənilər hələ də bu ərazilərin onlara aid olması iddiasından nəinki əl çəkmirlər, əksinə "Arşaven" adlandırdıqları Başkəndi xəyali "Şimali Qarabağ"ın "açarı" hesab edirlər.

Bütün bunlar danışıqların davam etdirilməsi razılığının əldə edilməsinə baxmayaraq



Ermənistanın hər an təxribat törədə biləcəyi ehtimalını artırır. Lakin maraqlısı budur ki, Azərbaycan cəmiyyətində ermənilərin bu "səhvi" edəcəyini həvəslə gözləyirlər...

Siyasi və hərbi ekspertlər Ermənistanın təxribat törətməsi ehtimalını əslində düşmən ölkənin məhv olmasının başlanğıcı hesab edirlər. Çünki belə olan halda Azərbaycan Ordusunun öldürücü zərbələrindən Ermənistanı heç bir qüvvə xilas edə bilməyəcək.

Hərbi ekspert Üzeyir Cəfərlinin fikrincə, təxribat erməni tərəfindən həmişə olub, indi də var. Lakin Azərbaycan Ordusu hər zaman təxribatların qarşısını alıb.

İstefada olan general Yaşar Aydəmirov isə hesab edir ki, düşmən ölkənin təxribata əl atması bizə böyük şans yaradar. Bu halda Azərbaycan hərbi yolla bütün əraziləri azad edə bilər. Hətta Naxçıvana gedən dəmir yolu xəttini öz balansına qaytarmaq üçün fürsət əldə edə bilər. Azərbaycanın o dəmir yolunu açmaq üçün hərbi əməliyyatlar keçirmək hüququ var: "Üç il əvvəl iki bölməmizin döyüşlərinin məntiqi nəticəsi olaraq onlar bütün komandanlığı, döyüş təminatı rəislərini, müdafiə nazirini də, baş qərargah rəisini də dəyişdilər. Bu dəfə də bizə, sadəcə, bəhanə lazımdır. Ona görə də düşmən risk edib bu təxribata gedən deyil, sadəcə, söz oyunundan istifadə edir".

✍ **Taleh Turqut, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Nəqliyyat İdarəsi

**tərəfindən 2019-cu il ərzində yerinə yetirilməsi planlaşdırılan "Qurğuların qaynaq tikişlərinin defektoskopiyası, dağıdıcı olmayan üsulla sınaqdan keçirilməsi və Texniki təhlükəsizlik sertifikatlarının alınması üçün ekspertiza rəyinin alınması xidmətləri" üzrə AÇIQ MÜSABIQƏYƏ DƏVƏT (35001X-19)**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi;
* Müsabiqə təklifinin təminatı.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) surəti olmaqla 21.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 400 manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müsabiqə təklifinin təminatı:***
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 50 bank günü olmalıdır.

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası -15 000 min manat (on beş min) , 21.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

***V. Müqavilənin icra müddəti:***
31.12.2019-cu il tarixinə qədər

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Azərbaycan Respublikası
Bakı şəhəri, Neftçilər pr., 73
**Əlaqələndirici şəxs:**
1. Abdullayev Əkrəm Seyfulla oğlu - Təmir-tikinti şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 50 8435052
Elektron ünvan: ekrem.abdullayev@socar.az
2. Musayev Sədi Möhtərəm oğlu - Mexanika şöbəsinin böyük mexaniki
Telefon nömrəsi: +994 50 8435084
Elektron ünvan: Sedi.Musayev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 21.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Nəqliyyat İdarəsi Satınalmalar qrupu**



## "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**Kern analizlərinin aparılması üçün laboratoriya və məsləhətçi şirkət xidmətinin satınalınması olan tələbatını təmin etmək məqsədi ilə Açıq Müsabiqə (KA-001/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 17 may 2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) olmaqla 20 may 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər Lot 1 üzrə 325 (275+18%) (Üç yüz iyirmi beş) manat (ƏDV daxil), Lot 2 üzrə 236 (200+18%) (İki yüz otuz altı) manat (ƏDV daxil), Lot 3 üzrə 396 (335+18%) (Üç yüz doxsan altı) manat (ƏDV daxil), Lot 4 üzrə 236 (200+18%) (İki yüz otuz altı) manat (ƏDV daxil), məbləğdə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Voen: 1503807961
Bank: ASC "Xalq" Bankının Baş filialı, VÖEN: 2000296061,
M/h AZ24NABZ01350100000000067944, Kod: 501026, SWIFT: HAJCAZ 22
H/h AZ65HAJCHCNAZN10000098111001 - AZN
H/h: AZ25HAJCHCNUSD10000098111002 - USD
H/h: AZ29HAJCHCNEUR10000098111003 - AVRO

İŞTİRAK HAQQI GERİ QAYTARILMIR.

UBOC tərəfindən ləğv edildiyi hallar istisna olmaqla

***IV. Təklifin təminatı:***
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin icrasına işlərə başlandıqdan sonra 12 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbə
**Əlaqələndirici şəxs:** Nurlan Cəbrayilov
**Əlaqələndirici şəxsin vəzifəsi:** "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 00 00 (27346)
Mob:(+994 70) 658 4545; (+994 50) 655 4545
E-mail: tenders@socar-umid.com

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.azerweb.com; www.ikisahil.az; www.socar.az;

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
* Zərflərin açılışı 20 may 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da, elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
* Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə edilə biləcək: tenders@socar-umid.com

**"Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 71 (7326) / Şənbə, 20 aprel 2019-cu il

# Mobil telefonlarımızı qeydiyyata saldırmasaq...



***"Ağıllı telefon" alarkən diqqət etməli olduğumuz önəmli nüanslardan biri də telefonların rəsmi şəkildə qeydiyyata alınmasıdır. Təbii ki, bir çox alıcı ya bilərəkdən, ya da bilməyərəkdən bu qaydaya əməl etmir. Beləliklə, onların telefonuna aldığı zamandan 15 gün keçəndə xəbərdarlıq mesajı gəlir. Telefon qeydiyyatdan keçirilməzsə, o zaman avtomatik olaraq, həmin telefon "qara siyahı"ya əlavə olunur. Yəni bloklanır və istifadəsi məhdudlaşdırılır.***

**Bəs bu kimi halların yaşanmaması üçün nə etmək lazımdır?**

İnformasiya-kommunikasiya texnologiyaları üzrə mütəxəssis Namət Məmmədzadə mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, ilkin olaraq satış ilə məşğul olan şirkətlər telefonları qeydiyyatdan keçirməlidir: "Bu onların vəzifə borcuna daxildir. Həmçinin telefon sahibinə də onun qeydiyyatı barəsində sənəd təqdim edilməlidir. Əgər satıcı bu sənədi təqdim edə bilmirsə bu, birbaşa həmin telefonun qeydiyyatda olmasını şübhə altına alır. Bu zaman vaxt itirmədən başqa satış nöqtəsinə müraciət etmək lazımdır. Alıcılar bu haqda məlumatsız olduqlarını səbəb gətirirlər. Fikrimcə, bu daha çox bəhanədir. Məsuliyyətsiz və məlumatsızlıq yüksək pul xərcləyib aldığınız telefonun sonda bloklanıb, istifadəyə yararsız olmasına gətirib çıxaracaq."

Həmsöhbətimiz bu halların qarşısının alınması ilə bağlı tövsiyələr verdi: "Mobil cihazların qeydiyyat sistemi (MCQS) Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində (MHM) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2011-ci il tarixli 212 nömrəli qərarı ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"na uyğun yaradılıb. Şəxsi istifadə məqsədi ilə ölkə ərazisinə gətirilərək istifadə olunan (respublikamızın mobil operatorlarının SİM kartları vasitəsi ilə) hər bir mobil cihazın İMEİ nömrəsi həmin cihazın şəbəkədən xidmət almağa başladığı tarixdən ən geci 30 (otuz) gün müddətində qeydiyyata alınmalıdır.Bu Qayda Respublikamıza gələn xarici qonaqlar, turistlər tərəfindən xarici ölkə operatorunun SİM kartı ilə rouminq xidmətindən istifadə edilən cihazlara şamil olunmur. Yəni onlar xarici ölkə operatorlarının SİM kartları ilə işləyən cihazlardan maneəsiz olaraq istifadə edə bilərlər. Qeydiyyat sistemi istismara başladığı tarixədək Azərbaycanda mobil rabitə şəbəkələrində istifadə edilən bütün mobil cihazların İMEİ nömrələri qeydiyyata alınmış hesab edilir. Yeni mobil cihazların qeydiyyatının yüksək səviyyədə təşkil edilməsi üçün əhali qaynar xətdən və ya internet səhifəsindən bu barədə aldığı məlumatlarla yanaşı, eyni zamanda, mobil operatorların müştəri xidmətlərindən ətraflı məlumat əldə edə bilərlər."

Ekspert, istifadəçilərin necə İMEİ kodu əldə edə biləmələrindən də bəhs etdi: "Mobil cihazlardan *#06# yığmaqla İMEİ nömrəsini müəyyən etmək olar. www.imei.az internet səhifəsindən istifadə etməklə abunəçilər istifadə etdikləri mobil cihazların İMEİ nömrələri ilə cihazların orijinallığını müəyyənləşdirə, eləcə də əlavə məlumatlar əldə edə bilərlər. Mobil cihazların qeydiyyatının aparılmasında məqsəd abunəçilərin mobil cihazlarından rahatlıqla istifadə edilməsinə şərait yaradılmasından, mənşəyi bilinməyən, texniki parametrləri standartlara uyğun olmayan, keyfiyyət əmsalları aşağı olan və insan orqanizmi üçün zərərli elektromaqnit şüalanmaları yayan (xalq arasında "pirat" kimi tanınan) mobil cihazların ölkəyə idxalının qarşısının alınmasından, həmçinin istehsalçı şirkətlərin tanınma dərəcəsinin və rəqabət qabiliyyətinin yüksəlməsinin təmin edilməsindən ibarətdir. Eyni zamanda, qeydiyyat sistemi itirilən mobil cihazların şəbəkədə istifadəsini mümkünsüz edir.

İtirilən mobil cihaz sahibinin qeydiyyat mərkəzinə müraciəti əsasında həmin cihazdan respublika ərazisində istifadə dayandırılır və oğurlanmış mobil cihaz qısa müddətdə lazımsız əşyaya çevrilir. Qeyd olunduğu kimi, mobil cihaz qeydiyyat sistemi müvafiq qərara əsasən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində yaradılmışdır. Bununla bağlı MHM-də mərkəzi baza sistemi quraşdırılıb. Eyni zamanda, mobil operatorların şəbəkələrində uyğun avadanlıqlar quraşdırılıb və mərkəzi baza sistemi ilə uyğunlaşdırılıb.Dövlət Gömrük Komitəsi və Naxçıvan Muxtar Respublikası da mərkəzi baza sisteminə qoşulub.Sevindirici haldır ki, belə bir sistemin proqram təminatı yerli mütəxəssislər tərəfindən hazırlanıb."

Namət Məmmədzadə onu da qeyd etdi ki, bu mövzu ilə bağlı yetərli məlumatı olmayan insanlar məlumat mərkəzinə stasionar şəbəkədən təkcə 157 nömrəsini, mobil telekommunikasiya şəbəkələrindən (012) 157 yığmaqla zəng edə bilərlər. Hər bir mobil cihazın İMEİ nömrəsi ən geci 30 (otuz) gün müddətində müvafiq qaydada qeydiyyatdan keçirilməlidir. Yeni gətirilən cihazdan istifadə edildikdə, həmin cihaza mesaj göndəriləcək və 30 gün ərzində qeydiyyatdan keçirilməsi bildiriləcəkdir. Tələb olunan müddət bitdikdən sonra, mobil cihaz qeydiyyata alınmazsa, onun İMEİ nömrəsi qara səhifəyə daxil ediləcəkdir. Qeydiyyatla bağlı tələb olunan sənədlərlə birgə (o cümlədən, pasportun əsli-ni) qeydiyyat mərkəzinə və ya poçt şöbələrinə müraciət edilməlidir. Mobil cihazların qeydiyyatının aparılması şəxsin istəyinə uyğun olaraq həm elektron, həm də fiziki müraciət etməklə aparılır. Elektron müraciət - www.smartpay.az və www.imei.az saytlarından yazılı müraciət etməklə və ya Şəbəkə Xidmət Mərkəzləri və ya poçt şöbələri vasitəsilə.

Ekspert sonda bunları da əlavə etdi ki, bəzən alıcılara qiymətin daha aşağı olması sərf edir: "Bunun üçün də qeydiyyatla maraqlanmırlar. Lakin unutmayaq ki, sonda bizi nələr gözləyir. Bu isə heç də doğru yanaşma deyil."

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Nə üçün gel-lak ziyanlıdır?



Bu gün gel-lakdan demək olar ki, qadınların əksəriyyəti istifadə edir. Bu vasitə dırnaqlarda 2- 3 həftə heç bir zərər görmədən qala bilir və dırnaqlar mükəmməl görünür. Bununla qadınlar vaxta, pula qənaət etmiş olurlar. Bir çoxları hesab edir ki, bu üsul ideal variantdır, lakin sağlamlığa zərər yetirdiyini də, unutmamaq lazımdır.

Ən böyük təhlükə isə məhsulun tərkibində təhlükəli toksin maddələrin olmasıdır. Burada əsas bir şeyi diqqətdə saxlamaq lazımdır ki, keyfiyyətli dırnaq boyası var, keyfiyyətsiz dırnaq boyası var. Professional gel - dırnaq boyası tamamilə təhlükəsizdir, onun tərkibində toksin maddələr yoxdur və onlar dırnağın tərkibinə daxil olmur.

***Digər bir vəziyyət isə odur ki, ucuz və keyfiyyətsiz dırnaq boyaları daha sərfəli olsa da, tərkibində ağır toksin maddələr mövcuddur:***

*Formaldehid*
*Toluol*
*Ksilen*
*Dibutil ftalat*

Bu komponentlər müxtəlif nəticələrə gətirib çıxara bilər. Belə ki, əllərdə və dırnaqlarda qızartılar, səpkilər, şişmələr və bəzi hallarda da yanıqlara da səbəb ola bilər. Bundan başqa, diputil ftalat dırnaqların tərkibinə və dırnaq ətinə daxil olaraq qadınların reproduktiv sisteminə mənfi təsir göstərir. Toluol böyrəklərin və qara ciyərin işini pozur, formaldehid neyrotoksin kimi məşhurdur. Belə dırnaq boyalarından istifadə etmək nəticədə qadınların orqanizminə ciddi zərər yetirə bilər.

Çox vaxt gel ilə örtülü olan dırnaq nəfəs almır kimi fikirlər eşidirik. Belə bir fikir yanlışdır, ona görə ki, dırnaqlar ümumiyyətlə, nəfəs almır, onlar "ölü materiyadır".

Yerdə qalan hallar isə qeyri-professional ustadan və ya qadınların özlərinin yol verdikləri səhvlərdən irəli gəlir:

* Həddindən artıq dırnaqları yonmaq dırnaq qatını zədələyə bilər
* Qeyri - steril alətlər hepatit və göbələk xəstəliyinə səbəb ola bilər.
* Heç bir vaxt geli soyub çıxartmaq olmaz, bu dırnaqların ciddi şəkildə zədələnməsinə səbəb ola bilər. Vasitəni yalnız usta xüsusi vasitələrlə çıxartmalıdır.
* Gel-lakı uzunmüddətli daşımaq olmaz. Vaxtı bitmiş gel-lak allergiyaya və astmaya səbəb ola biləcək maddələr ifraz edir və nəticədə qadın orqanizmi zərər çəkir.

**Könül Cavid,**
***"İki sahil"***

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin Kadr hazırlığının təşkili mərkəzinin müdir müavini Fərid Babayevə, babası **Hüseynağa Məmmədovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* ikisahil@azdata.net

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 20.04.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8213**
*İndeks:* **0151**, *Sifariş:* **1279**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.